RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 7 (8600) ÇƏRŞƏNBƏ, 13 yanvar 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




Ötən ilin ən böyük hadisəsi olan İkinci Qarabağ müharibəsi Azərbaycanın hərbi-siyasi qələbəsi ilə başa çatdı. 28 il idi danışıqlar prosesində destruktiv mövqe tutan, işğal etdiyi torpaqları azad etmək istəməyən Ermənistan güc yolu ilə buna məcbur edildi, cəzalandırılaraq Azərbaycan torpaqlarından qovuldu. Tarixə həm də Vətən müharibəsi kimi həkk olunan bu savaş Prezident İlham Əliyevin əməliyyatların ilk günündən diktə etdiyi şərtlərlə başa çatdı.

## Moskvada keçirilən üçtərəfli görüş, imzalanan bəyanat Azərbaycanın milli maraqlarına cavab verən növbəti hadisə oldu

### Ermənistanın başqa yolu yoxdur

Noyabr ayının 10-da imzalanan üçtərəfli bəyanat Azərbaycanın parlaq qələbəsinin, Ermənistanın isə məğlubiyyətinin hüquqi-siyasi təsdiqi oldu. Ali Baş Komandan İlham Əliyevin şərtlərinə uyğun olaraq öhdəlik götürən Ermənistanın Ağdam, Kəlbəcər və Laçından ordusunun qalıqlarını çəkməsi hərbi kapitulyasiya idi. Rayonların döyüşsüz azad olunması ilə yanaşı, bəyanatın digər bəndləri də Azərbaycanın mənafelərinə uyğundur.

"Dağlıq Qarabağ problemi" anlayışı artıq yoxdur, çünki müharibə başa çatıb. Ermənistan müxalifəti bəyanatla razılaşmaq istəməsə də, onun vəziyyətdən başqa çıxış yolu yoxdur. Ermənistanda iqtidarda Nikol Paşinyanın və ya qeyrisinin olmasından asılı olmayaraq, hakimiyyət üçtərəfli razılaşmaya əməl etməyə məcburdur. Rusiya Prezidenti Vladimir Putin də ötən ilin noyabrında müsahibəsində bildirdi ki, Ermənistanın Qarabağla bağlı razılaşmadan imtina etməsi ölkə üçün intihar olar. Bəli, artıq Ermənistanın, dünya erməniliyinin Azərbaycanın tarixi ərazisi olan Dağlıq Qarabağda ikinci erməni dövləti yaratmaq planlarına birdəfəlik son qoyuldu. Dağlıq Qarabağdakı ermənilərin isə vəziyyətin tədricən normallaşmasından sonra Azərbaycanın qanunları ilə yaşamaqdan başqa yolları yoxdur. Öz növbəsində Ermənistan gələcəyini fikirləşməli, işğal siyasətini kənara qoyaraq region dövlətləri ilə sivil əməkdaşlığa başlamalıdır. 10 noyabr bəyanatı da Ermənistana bu deyilənlərdən savayı başqa bir imkan vermir.

Ardı 5-ci səh.

## Qazaxıstan Respublikasının birinci Prezidenti - Elbası "Nur Otan" Partiyasının Sədri zati-aliləri cənab Nursultan Nazarbayevə

Hörmətli Nursultan Abişeviç!

Lideri olduğunuz "Nur Otan" Partiyasının Qazaxıstanda keçirilmiş parlament seçkilərində inamlı qələbə qazanması münasibətilə Sizi öz adımdan və Yeni Azərbaycan Partiyası adından ürəkdən təbrik edirəm.

Qazaxıstanın müasir tarixi ölkənin aparıcı siyasi qüvvəsi olan "Nur Otan" Partiyasının fəaliyyəti ilə sıx bağlıdır. Partiya yarandığı gündən Qazaxıstan dövləti və xalqına şərəflə xidmət etmiş, böyük işlər görmüşdür. Qurucusu olduğunuz və başçılıq etdiyiniz partiyanın bu qələbəsi Qazaxıstanın rifahı naminə həyata keçirdiyiniz ümummilli siyasətə, çoxşaxəli fəaliyyətinizə verilən yüksək qiymətin ifadəsi, xalqınızın Sizə olan inam və etimadının bariz təzahürüdür.

Azərbaycan ilə Qazaxıstanı ortaq mənəvi dəyərləri bölüşən xalqlarımızın iradəsindən qaynaqlanan strateji tərəfdaşlıq münasibətləri birləşdirir. İnanıram ki, bu xoş ənənələrə əsaslanan Azərbaycan-Qazaxıstan dostluq və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Qazaxıstan xalqına daim əmin-amanlıq və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti,***
***Yeni Azərbaycan Partiyasının Sədri***

*Bakı şəhəri, 12 yanvar 2021-ci il*

## Qırğız Respublikasının yeni seçilmiş Prezidenti zati-aliləri cənab Sadır Japarova

Hörmətli cənab Japarov!

Qırğız Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Qırğızıstan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Qırğızıstan xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 yanvar 2021-ci il*

## Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Kontitusiyasının 92-ci maddəsini və 95-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 107; 1999, № 5, maddə 284; 2000, № 6, maddə 380, № 12, maddələr 832, 834; 2003, № 2, maddə 77; 2004, № 5, maddə 314; 2006, № 1, maddə 3, № 5, maddə 396, № 12, maddə 1005; 2007, № 8, maddə 755, № 11, maddələr 1049, 1081; 2009, № 6, maddə 395; 2010, № 3, maddə 171; 2013, № 4, maddə 358; 2016, № 1, maddə 35; 2019, № 1, maddə 1, № 8, maddə 1365; 2020, № 4, maddə 395, № 6, maddə 673, № 7, maddə 848) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"nin 3-cü maddəsinə aşağıdakı məzmunda səkkizinci hissə əlavə edilsin:

"Karantin rejiminin tətbiq edilməsi, sanitariya-epidemioloji və bu kimi digər tədbirlərlə əlaqədar olaraq, Milli Məclisin Sədri Milli Məclisin iclaslarının, habelə Milli Məclisin komitə və komissiyalarının iclaslarının müəyyən dövr üçün real vaxt rejimində videokonfrans sistemi vasitəsilə keçirilməsi barədə sərəncam qəbul edə bilər. Videokonfrans sistemi vasitəsilə keçirilən iclaslarda qeydiyyat və səsvermə deputatların gücləndirilmiş elektron imzaları vasitəsilə həyata keçirilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2020-ci il*

## Ə.M.İsmayılovun Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əhməd Məhəmməd oğlu İsmayılov Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 yanvar 2021-ci il*

## Felyeton

## SOVET "DEMAQOQU", RADİKAL MÜXALİFƏT, 5-Cİ KOLON

Hər şey inkişaf edir, hər şey dəyişir.

Bizə bunu belə başa salıblar.

İnkişaf hara aparır, dəyişikliklər nəyə gətirir - bunlar irəlicədən dəqiq bilinmir. Çünki dövr və zamandan, hadisələrin gedişindən asılı olur.

Bəlkə də nəyin necə olacağını qabaqcadan bilənlər də olur. Amma belələri tək-tükdür. Yerdə qalanları dəyişikliklər baş verib qurtarandan, hadisələr başa çatandan sonra mahiyyətdən xəbər tuturlar.

❖ ❖ ❖

SSRİ-ni yıxıb, o boyda qırmızı imperiyanı böyrü üstə qoyan Qorbaçov hər şeyi "yenidənqurma və aşkarlıq" şüarı ilə başladı.

Guya sovetlər ittifaqındakı hər şey təzədən qurulacaq, bütün həqiqətlər hündürdən və açıq şəkildə deyiləcəkdi.

Bir soruşan yox idi ki, bəyəm indiyəcən bəh-bəhlə təriflədiyiniz sosializm pisdir ki, onu yenidən quraq? Yaxud qurulmuşun yenidən qurulmasına nə ehtiyac? Və ya deyən yox idi ki, indiyədək nə gizlin idi, axı Sov.İKP xalqdan heç nə gizlətmirdi? Onun dediyi tənqidlər aşkarlıq sayılmırdı?

Bu Qorbaçov "perestroyka"sının ideoloji tərəfi idi. Əslində kommunizmin dağıdılmasına xidmət edirdi.

İqtisadiyyatı pozmaq üçün isə "alkoqolizmə qarşı mübarizə" cəbhəsi açıldı.

Ardı 7-ci səh.

## Prezidentə yazırlar

## "Biz Sizin ətrafınızda dəmir yumruq kimi birləşmişik"

**Rəşadətli ordumuzun Vətən müharibəsində qazandığı tarixi Zəfərlə əlaqədar Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları ünvanlamaqda davam edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.**

Ardı 2-ci səh.

## İndoneziya Respublikasının Prezidenti zati-aliləri cənab Coko Vidodoya

Hörmətli cənab Prezident!

Cakarta şəhəri yaxınlığında sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost İndoneziya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

*Allah rəhmət eləsin!*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 yanvar 2021-ci il*

## Azərbaycan koronavirusa qarşı ən səmərəli tədbirlər görən ölkələrdəndir



Bütün dünyada qlobal koronavirus infeksiyası ilə mübarizə davam edir. Xeyli vaxtdır əksər ölkələrdə sərt karantin məhdudiyyətləri tətbiq olunsa da, hələ ki, bu tədbirlər xəstəliyin qarşısının alınnmasına imkan vermir.

Virus hər gün daha çox insanı yaxalamaqda davam edir. Artıq bu təhlükəli virusa planet üzrə yoluxanların sayı 90 milyonu ötüb, 2 milyona yaxın insan isə həyatını itirib. Bununla belə, ötən ilin əvvəllərindən Yer kürəsində yayılmağa başlayan yeni növ koronavirusla mübarizənin sonuncu mərhələsinə qədəm qoyduğumuzu söyləyə bilərik. Çünki dünyanın bir sıra ölkəsində virusa qarşı vaksinasiyaya başlanılıb.

### 100 gün ərzində bütün ölkələrdə peyvəndləmə start götürməlidir

İndiyə qədər koronavirusa qarşı peyvənd olunan insanların sayına görə ilk yeri İtaliya tutur. Böyük Britaniyada da sürətli vaksinasiya prosesi həyata keçirilir. Türkiyədə isə bir neçə gün sonra koronavirusa qarşı peyvəndləmə başlayacaq. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Gebreyesus bildirib ki, tibbi heyət və xüsusi riskli insanların koronavirusa qarşı peyvəndlənməsi qarşıdakı 100 gün ərzində dünyanın bütün ölkələrində start götürməlidir.

Ardı 5-ci səh.

## Ermənilər xofdadır: «Moskva görüşünün qalibi İlham Əliyev oldu»

### Üçtərəfli görüşün nəticələri Ermənistanda məyusluqla qarşılandı



Azərbaycan hərb meydanında qazandığı qələbəni diplomatik müstəvidə də davam etdirir. Bu, növbəti real təsdiqini Rusiya, Azərbaycan və Ermənistan liderlərinin Moskva görüşündə imzalanan birgə Bəyanatda da tapdı. Xatırladaq ki, bu sənədin imzalanması 10 noyabr Bəyanatında yer alan məsələlərin həyata keçirilməsi istiqamətində atılan mühüm addımdır.

Ermənistanda bu görüşdə Azərbaycanın maraqlarının təmin olunduğu xüsusi vurğulanır. Bunu erməni KİV-də və ekspertlərin rəylərində aydın görmək mümkündür.

Ardı 7-ci səh.

## ♦Prezidentə yazırlar

# “Biz Sizin ətrafınızda dəmir yumruq kimi birləşmişik”

*Əvvəli 1-ci səh.*

### “Xalq-Ordu-Prezident vəhdəti dünyaya sübut etdi ki, Azərbaycan xalqı Sizin rəhbərliyinizlə hər şeyə qadirdir”

Almaniya Federativ Respublikasının Berlin şəhərindən **Zaur Spivak** yazır:

“Cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Sizin Azərbaycan naminə gördüyünüz bütün işlər xalqımız tərəfindən dəstəklənir. Qələbə ilə başa çatan 44 günlük müharibədə Xalq-Ordu-Prezident vəhdəti dünyaya sübut etdi ki, Azərbaycan xalqı Sizin rəhbərliyinizlə hər şeyə qadirdir. Həmin günlərdə biz - Vətəndən kənarda yaşayan azərbaycanlılar - Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəklədiyi Azərbaycanlıların Koordinasiya Şuralarında birləşən diaspor təşkilatları Vətənin bu məsuliyyətli günlərində üzərimizə düşən vəzifəni dərk edərək Azərbaycanın haqlı mübarizəsini, öz torpaqlarını işğaldan azad etmək haqqının olduğunu yaşadığımız ölkələrin, şəhərlərin müxtəlif orqanlarına çatdırmağa səy göstərdik, erməni təxribatlarına bütün səviyyələrdə layiqli cavablar verdik. Azərbaycan diasporu daim Sizin qayğı və diqqətinizi hiss edir. Bu il “Diaspor fəaliyyətində xidmətə görə” Azərbaycan Respublikasının medalı və təşəkkürnamə ilə təltif olunan soydaşlarımızın adları içərisində mənim də adımın olmasından qürur və fərəh hissi keçirdim. Bu, Sizin və dövlətimiz tərəfindən mənim fəaliyyətimə verilən yüksək qiymətdir.

Cənab Prezident! Sizə dərin minnətdarlığımı bildirirəm. Sizi əmin edirəm ki, daim Vətənimizin yanında olaraq, ölkəmizin dünyada daha yaxşı təbliği və beynəlxalq aləmdə milli maraqlarımızın qorunması üçün əlimdən gələni edəcəyəm”.

### “Rəhbərliyiniz altında müzəffər Azərbaycan Ordusunun uğuru bizi çox sevindirdi”

Türkiyənin İstanbul şəhərindən **Cavid Çağlar:**

“Hörmətli cənab Prezident.

Sizi Ermənistanın işğalına qarşı mübarizədə qazandığınız Qələbə münasibətilə təbrik edir və alqışlayıram.

Rəhbərliyiniz altında müzəffər Azərbaycan Ordusunun uğuru bizi çox sevindirdi. Atanızın yaxın dostu olaraq Sizi və Azərbaycan xalqını təbrik edir, yeni ilinizin uğurlu olmasını arzu edirəm”.

### “Mən fəxr edirəm ki, Sizin rəhbərlik etdiyiniz ölkənin vətəndaşıyam”

Tərtər sakini **Xədicə Məmmədəliyeva** yazır:

“Hörmətli cənab Prezident.

Xalqımıza yaşatdığınız tarixi Zəfər üçün Sizə sonsuz minnətdarlığımızı bildiririk. Bu 30 ildə bizlərə - məcburi köçkünlərə böyük diqqət və qayğı göstərmisiniz. Mən fəxr edirəm ki, Sizin rəhbərlik etdiyiniz ölkənin vətəndaşıyam. Sizə uzun ömür, cansağlığı arzulayıram”.

### “Siz xalqımızın haqq işi uğrunda əsl fədakarlıq nümunəsi ortaya qoyaraq tarixi ədaləti bərpa etdiniz”

Bakı şəhərindən **Baba Əliyev:**

“Möhtərəm cənab Prezident.

Hər bir azərbaycanlının əbədi qürur duyacağı Müzəffər Ali Baş Komandan!

Başa vurduğumuz 2020-ci ildə istər çoxşaxəli islahatlar və pandemiya ilə mübarizədə öncül rəhbər, istərsə də müzəffər lider və Azərbaycan xalqının amalını gerçəkləşdirən şəxsiyyət kimi könülləri yenidən fəth etdiniz. 44 gün davam edən və işğal altındakı yurd yerlərimizin şanlı ordumuz tərəfindən azad olunması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Siz xalqımızın haqq işi uğrunda əsl fədakarlıq nümunəsi ortaya qoyaraq tarixi ədaləti bərpa etdiniz. Sizin “Qarabağ Azərbaycandır!” ifadəniz bu gün bütün dünya azərbaycanlıları üçün milli qürur, fəxarət, birlik və həmrəylik göstəricisidir. Bu qəhrəman xalqa, bu müqəddəs Vətənə sonsuz sevginiz ətrafında əldə edilmiş əvəzsiz birlik və həmrəyliyi də heç vaxt və heç nə sarsıda bilməz. Bu birlik və həmrəyliyimizin, əzəli və əbədi torpaqlarımızın azad olunması sevinci ilə Sizi, qürurunu hər gün yaşadığımız və yaşayacağımız Zəfər Günü münasibətilə ürəkdən təbrik edir, Sizə cansağlığı və uzun ömür, müstəqil Azərbaycanımızın daima inkişafı naminə yeni-yeni uğurlar arzulayıram.

Yaşasın Azərbaycan, yaşasın Xalq-Prezident həmrəyliyi!

Qarabağ Azərbaycandır!”

### “Müzəffər Ali Baş Komandan, Sizin rəhbərliyiniz və uzaqgörən siyasətiniz nəticəsində biz Qələbənin sevincini daddıq”

Füzuli sakini **Elmir Kazımov** yazır:

“Müzəffər Ali Baş Komandan.

44 günlük Vətən müharibəsində qazandığınız parlaq Qələbə münasibətilə Sizi və Azərbaycan xalqını təbrik edirəm. Doğma kəndimiz, orada keçirdiyim uşaqlıq illərinin xatirələri 28 ildə bir an da olsa mənim yadımdan çıxmadı. Bu illər ərzində Qarabağımıza, doğma yurd-yuvamıza qayıtmaq arzusu ilə yaşamışıq. Nəhayət ki, həmin gün gəlib çatdı.

Müzəffər Ali Baş Komandan, Sizin rəhbərliyiniz və uzaqgörən siyasətiniz nəticəsində biz Qələbənin sevincini daddıq. Bu gün biz öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalqıq.



Hər bir qarabağlı kimi mən də Qarabağımıza, Yuxarı Yağlıvənd kəndinə qayıdacağım günü səbirsizliklə gözləyirəm.

Cənab Prezident, icazənizlə Sizi və ailənizi babam Seyid Musa Ağanın ocağına dəvət edirəm. Çünki bizlərə bu sevinci yaşadan, dədə-baba ocaqlarımıza qaytaran məhz Sizsiniz. Buna görə Sizə bir daha minnətdarlığımı bildirirəm.

Sizə, ilk növbədə, cansağlığı, tükənməz həyat eşqi, bol-bol uğurlar arzu edirəm.

Hakimiyyətə gəldiyiniz ilk gündən çiyinlərinizə necə mürəkkəb və məsuliyyətli, eyni zamanda, şərəfli missiyanın düşdüyünü anlamış, bu yolda yorulmadan, əzmlə addımlamısınız. Şükürlər olsun ki, bu gün də çəkdiyiniz əziyyətin bəhrəsini gördünüz. Bu gün ərazi bütövlüyünü bərpa etmiş qalib sərkərdə, Müzəffər Ali Baş Komandansınız.

Sizin kimi bir lideri olduğu üçün Azərbaycan xalqı çox xoşbəxtdir. Sizə ancaq Qələbə yaraşır.

Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!”

### “Siz Azərbaycan dövlətçiliyi, Azərbaycan xalqı üçün misli görünməmiş qəhrəmanlıq səhifəsi yazdınız”

Ağcabədi sakini **Səlahəddin Aslanov:**

“Müzəffər Ali Baş Komandan.

Sizi yeni tarix yazmağınız, doğma Qarabağ torpaqlarını almağınız münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Siz həqiqətən Azərbaycan dövlətçiliyi, Azərbaycan xalqı üçün misli görünməmiş bir qəhrəmanlıq səhifəsi yazdınız! Siz bunu dünyanı mat qoyan müdrik və uzaqgörən siyasətinizlə bacardınız. Azərbaycan dövlətinin və xalqının gücünü və mərhəmətini bütün dünyaya göstərdiniz.

Sizin xarici ölkə jurnalistlərinə verdiyiniz müsahibələri, xüsusilə dövlətimizə qarşı qərəzli münasibət sərgiləyən mətbuat nümayəndələri ilə dialoqlarınızı, onlara verdiyiniz kəskin və tutarlı cavablarınızı, Azərbaycanın haqlı mövqeyini bütün dünyaya çatdırmağınızı böyük qürur və iftixar hissi ilə izləyirdik.

XX əsrin qəhrəmanı Ulu Öndərimiz Heydər Əliyevdir, XXI əsrin qəhrəmanı isə Sizsiniz, cənab Ali Baş Komandan!

Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan!”

### “Siz bu şanlı Qələbəyə imza atmaqla atanızın əbədiyaşar ideyalarına sadiqliyinizi nümayiş etdirdiniz”

Oğuz rayonundan **Murad Əliyev** yazır:

“Hörmətli cənab Prezident.

Sizi və müzəffər Azərbaycan Ordusunu şəxsən öz adımdan və yaşadığım Calut sakinləri adından möhtəşəm, şanlı Qələbə münasibətilə təbrik edirəm, minnətdarlığımı bildirirəm.

Siz bu şanlı Qələbəyə imza atmaqla, atanızın vəsiyyətini yerinə yetirməklə onun ruhunu şad etdiniz, onun əbədiyaşar ideyalarına sadiqliyinizi nümayiş etdirdiniz. Bizə isə qalib ölkənin qalib vətəndaşı sevincini yaşatdınız.

Ulu Tanrı Sizi, Mehriban xanım Əliyevanı və bütün ailə üzvlərinizi qorusun. Sizləri bu ölkənin, bu xalqın başı üzərindən əskik etməsin. Sizə qalib Azərbaycanın xoşbəxt gələcəyi naminə yeni zəfərlər arzulayıram”.

### “Biz Sizin ətrafınızda dəmir yumruq kimi birləşmişik”

Mingəçevir şəhərindən **Mütəllib Əliyev** yazır:

“Əziz və hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan!

İkinci Qarabağ müharibəsinin iştirakçısı, Suqovuşan və Talışkənd döyüşlərinin iştirakçısı kimi Sizə dərin təşəkkürümü bildirirəm. Siz tarixdə əbədi iz qoydunuz. Sizin böyük siyasətçi və lider olduğunuzu bütün dünya bir daha gördü. Biz Sizin ətrafınızda dəmir yumruq kimi birləşmişik.

Biz fəxr edirik ki, Azərbaycanlıyıq!

Biz fəxr edirik ki, Sizin kimi Prezidentimiz, Ali Baş Komandanımız var.

Yaşasın Azərbaycan Ordusu! Yaşasın Ali Baş Komandan!”

### “Bu günləri bizə yaşatdığınız üçün Sizə təşəkkür edirik”

Naftalan sakini **Davud Məmmədov:**

“Müzəffər Ali Baş Komandan.

Sizə təhsil aldığım Səməd Vurğun adına Naftalan şəhər tam orta məktəbin şagirdləri və şəxsən öz adımdan dərin minnətdarlığımı bildirirəm. Siz düşmən üzərində böyük zəfər çalmaqla və Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə bütün dünyaya sübut etdiniz ki, Qarabağ Azərbaycandır! Hazırda biz dünyanın ən xoşbəxt övladlarıyıq. Bu günləri bizə yaşatdığınız üçün Sizə təşəkkür edirik.

Bizim Prezidentimiz, bizim rəhbərimiz, Uca Allah Sizi qorusun!”

### “Siz fəxr etdiyimiz Xalq Qəhrəmanısınız”

Göyçay sakini **Əli Zayidov** yazır:

“Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan.

Vətən döyünən ürəyimiz, məsləyimiz, öz yurdumuza hakimliyimiz, üçrəngli bayrağımız qürurumuz, and yerimiz, Siz isə fəxr etdiyimiz Xalq Qəhrəmanısınız.

Sizə ailə üzvlərim və şəxsən öz adımdan azad, güclü Azərbaycanın vətəndaşı olduğuma görə təşəkkür edir, Sizin yürütdüyünüz siyasəti dəstəkləyirəm.

Allah daim Sizi qorusun! Amin”

### “Sizin müdrik və uzaqgörən siyasətinizin nəticəsidir ki, bu gün Azərbaycanın ərazi bütövlüyü bərpa olundu”

Bakı şəhərindən **Ramilə Cəfərli:**

“Hörmətli cənab Prezident.

Tükənməz səbriniz və dəmir iradəniz sayəsində Siz başda olmaqla Azərbaycan Ordusu iki əsr sonra şanlı tarix yazdı. Sizin müdrik və uzaqgörən siyasətinizin nəticəsidir ki, bu gün Azərbaycanın ərazi bütövlüyü bərpa olundu, dövlətimiz və xalqımız həm beynəlxalq arenada, həm də döyüş meydanında alnıaçıq, üzüağ olaraq qalibiyyət qazandı. Buna görə, cənab Prezident, Sizə dərin minnətdarlığımı bildirirəm.

Sizə möhkəm cansağlığı, uzun ömür arzulayıram. Allah həmişə yolunuzu açıq etsin! Allah Sizi xalqımıza çox görməsin!”

### “Sizin ölkəmizin bütün sahələrində apardığınız uğurlu siyasətin nəticələri öz bəhrəsini verməkdə davam edir”

Şəki şəhərindən **Ramazan Salamov** yazır:

“Çox hörmətli cənab Prezident.

Ölkəmizin ərazi bütövlüyü uğrunda apardığınız böyük mübarizənizi tarixi zəfərlə başa vurmağınız münasibəti ilə Sizi ailə üzvlərim və şəxsən öz adımdan təbrik edirəm. Torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş əsgər və zabitlərimizə Allahdan rəhmət diləyir, yaralanmış qazilərimizə isə tezliklə sağlamlıqlarına qovuşmalarını arzulayıram.

Sizin ölkəmizin bütün sahələrində apardığınız uğurlu siyasətin nəticələri öz bəhrəsini verməkdə davam edir. Vətəndaşlarımıza göstərdiyiniz qayğı xalqımızın yaddaşına, hafizəsinə birdəfəlik daxil olmuş və bu xeyirxah əməlləriniz tarix boyu ürəklərdə yaşayacaq. Xüsusilə də təhsilə, səhiyyəyə, sosial sahəyə və digər sahələrə diqqət, sözün əsl mənasında, təqdirəlayiqdir.

Cənab Prezident, övladım Xəyalə Salamova Azərbaycan Memarlıq və İnşaat Universitetinin Memarlıq fakültəsində ödənişli əsaslarla təhsil alır. O, Azərbaycan Respublikası Gənclər Fondunda keçirilən müsabiqədə iştirak etmiş və qalib olmuşdur. Keçirilən müsabiqədə qalib olduğu üçün builki təhsil haqqı Gənclər Fondu tərəfindən ödənilmişdir.

Bu diqqət həm ailəmizə sevinc bəxş etmiş, həm də qızımı daha yaxşı oxumağa həvəsləndirmişdir.

Bu diqqət və qayğıya görə Sizə öz minnətdarlığımızı bildiririk”.

### “İlham Əliyev əsl Liderdir!”

Sumqayıt şəhərindən **Natəvan Ağayeva** yazır:

“Əziz və hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Tarix Sizi millətin şan-şöhrət rəmzi kimi yetişdirib. İlham Əliyev mötəbər məclislərdə xalqımızın ləyaqətli elçisidir. Onun daşıdığı titulların hər birinə nəzər salsaq iftixarla deyə bilərik: İlham Əliyev əsl Liderdir! Qarabağ probleminin həlli yolunda biz ondan çox şey gözləyirdik və inamlarımız liderimizin sayəsində gerçək oldu.

Ali Baş Komandan, möhtərəm cənab Prezident, Sizə işğal altındakı torpaqlarımızı azad etdiyinizə, qaçqın və məcburi köçkünlərimizin öz yurd-yuvalarına, doğma ocaqlarına qayıtmasında qazandığınız uğura görə, Qələbəmizə görə təşəkkür edirəm.

Mən bir Şurnuxlu kimi Sizə çox sağ olun deyirəm, mənim ata-baba torpağımı yağı düşmədən azad etdiyiniz üçün minnətdarlığımı bildirirəm.

Müdrik bir atalar sözü var: “Ataların yolu oğulların yoludur”. Bu atalar sözü Sizin haqqınızda deyilib. Siz Ulu Öndərimizin davamçısısınız. Atanıza verdiyiniz sözü tutdunuz. Uğurlarınız davamlı olsun! Biz bilirik ki, Siz işğaldan azad olunmuş torpaqlarımızı cənnətə çevirəcəksiniz.

Bir daha Sizə təşəkkür edirəm”.

### “Sizin göstərişiniz əsasında qazilərə qayğı, maddi və mənəvi dəstək olunmasının canlı şahidiyəm”

Ağcabədi rayon sakini **Teymur Heydərov** yazır:

“Müzəffər Ali Baş Komandan.

27 sentyabr 2020-ci il tarixində başlamış, 44 gün ərzində davam etmiş Vətən müharibəsində erməni faşistlərini dəmir yumruğunuzla məhv etdiniz. Bu qələbə ilə Siz Azərbaycan tarixində görünməmiş bir zəfər qazandınız. Sizə ailə üzvlərim və şəxsən öz adımdan dərin təşəkkürümü bildirirəm.

Sizin göstərişiniz əsasında qazilərə qayğı, maddi və mənəvi dəstək olunmasının canlı şahidiyəm. Çünki mənim oğlum, qazi olan mayor Heydərov Elşad Teymur oğluna da yüksək səviyyədə diqqət və qayğı göstərilir. Buna görə Sizə sonsuz minnətdarlığımı bildirirəm. Övladım Vətən müharibəsində Suqovuşan istiqamətində gedən döyüşlərdə sağ ayağını dizdən yuxarı itirmişdir. Vətən sağ olsun! Mən fəxr edirəm ki, oğlum torpaqlarımızın azad olunması uğrunda mübarizədə iştirak etmişdir.

Sizə uzun ömür və möhkəm cansağlığı arzulayıram. Allah Sizi xalqımızın başının üstündən əskik etməsin!”

### “Fəxr edirəm ki, bizim bu cür güclü və qəhrəman, torpağını və xalqını sevən Prezidentimiz var”

Mingəçevir şəhər sakini **Ayə Tağıyeva** yazır:

“Müzəffər Ali Baş Komandanımız.

Mən gözəl nur şəhəri olan Mingəçevir şəhərində anadan olmuşam, hazırda bu şəhərdə yaşayıram. 10-cu sinif şagirdiyəm.

Mən Sizinlə qürur duyuram, fəxr edirəm ki, bizim bu cür güclü və qəhrəman, torpağını və xalqını sevən Prezidentimiz var. Arzu edirəm ki, heç bir zaman qocalmayasınız, həmişə belə cavan və güclü olasınız. Sizə olan ürək sözlərim çoxdur, nə qədər gözəl sözlər yazsam belə, Sizin üçün az olar.

Mən televizor vasitəsilə Sizi əsgərlərimizlə görüşərkən gördüm. Mənim də arzumdur ki, Sizi canlı olaraq görüm, Sizi bir baba kimi qucaqlayım. Mən Sizi çox sevirəm, Sizi görən kimi sevinirəm. Həyatda ən böyük arzum Sizinlə görüşməkdir. Sizin gözəl ürəyiniz var, Uca Rəbbim ürəyinizə görə versin! İnşallah!

Müharibə vaxtı çox qorxu, həyəcan, stres keçirsək də, Mingəçevirə atılan raketlərin qorxunc səsləri biz uşaqları qorxutsa da, nəhayət ki, bütün bunların sonu Sizin kimi uzaqgörən, müdrik rəhbərimiz və qəhrəman əsgərlərimiz sayəsində sevinclə bitdi. Sizə və əsgərlərimizə sonsuz təşəkkürlərimi bildirirəm. Şəhid olan qardaşlarımın ruhu qarşısında baş əyirəm, onların ailələrinə səbr diləyirəm. Allah bütün qazilərimizə də şəfa versin!

Bundan belə hər bayramda bizlər şəhid olan qardaşlarımızın ailələrinə baş çəkməli, qazilərimizi ziyarət etməliyik. Əgər bizlər 2021-ci ilə sağ-salamat qalmışıqsa, Sizin və əbədi səssizliyə qovuşanlar sayəsində, Vətən üçün canından keçənlər sayəsində, qazilərimiz sayəsində qalmışıq. Bizim gələcəyimiz olsun deyə, öz gələcəyindən keçənlərdir şəhidlər! Biz gülək deyə, öz ailələrini gözüyaşlı qoyanlardır şəhidlər! Biz torpağımızda rahat gəzək deyə, qanını torpağa tökənlərdir şəhidlər! Üçrəngli bayrağımız zirvələrdə dalğalansın deyə, o bayrağa bürünüb gözünü əbədi yumanlardır şəhidlər!

Şəhidlik böyük zirvədir. Hər adama nəsib olmur. Şəhidlərimizi heç vaxt unutmayacağam. Bu il şəhidlərin ilidir. Öpürəm bütün şəhid analarının əllərindən. Sizə isə, cənab Prezident, sonsuz təşəkkürlər! Sizi çox sevirəm. Yaxşı ki varsınız”.

### “44 günlük Vətən müharibəsində əldə etdiyiniz Qələbə müvəffəqiyyəti Sizin 17 illik gərgin fəaliyyətinizin məntiqi yekunudur”

Bakı şəhər sakini **Elşad Hüseynov:**

“Hörmətli Prezident! Müzəffər Ali Baş Komandan!

44 günlük Vətən müharibəsində əldə etdiyiniz Qələbə müvəffəqiyyəti Sizin 17 illik gərgin fəaliyyətinizin məntiqi yekunudur. Bu, Azərbaycan kimi gənc bir ölkə və onun gənc ordusu üçün həqiqətən misilsiz uğur, inanılmaz nailiyyətdir. Sizin xalqı bir yumruq kimi birləşdirən “Qarabağ Azərbaycandır!” ifadəniz bu gün bütün dünya azərbaycanlılarının milli qürur, fəxarət, birlik və həmrəylik göstəricisinə çevrilmişdir. Bu xoş günləri bizlərə yaşatdığınız üçün Sizə dərin təşəkkürümüzü və sonsuz minnətdarlığımızı bildiririk. Bütün məcburi köçkünlər kimi Laçın rayonu Mirik kənd əhalisinin mütləq əksəriyyəti də vandal düşmənlər tərəfindən darmadağın edilmiş ata-baba yurd yerlərimizin bərpası və abadlaşdırılması işində iştirak etmək üçün səbirsizliklə o torpaqlara qayıdacağı günü gözləyir.

Ulu Tanrı Sizi qorusun!”

---

## “Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsini və 95-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 565; 2000, № 12, maddə 833; 2005, № 10, maddə 876; 2007, № 5, maddə 437; 2009, № 6, maddə 395; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71; 2016, № 1, maddə 34; 2019, № 4, maddə 576, № 6, maddə 1004; 2020, № 4, maddə 396, № 7, maddə 827) 5-ci maddəsinə aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

“Karantin rejiminin tətbiq edilməsi, sanitariya-epidemioloji və bu kimi digər tədbirlərlə əlaqədar olaraq, Azərbaycan Respublikası Milli Məclisinin sədri komitələrin iclaslarının müəyyən dövr üçün real vaxt rejimində videokonfrans sistemi vasitəsilə keçirilməsi barədə sərəncam qəbul edə bilər. Videokonfrans sistemi vasitəsilə keçirilən komitə iclaslarında qeydiyyat və səsvermə deputatların gücləndirilmiş elektron imzaları vasitəsilə həyata keçirilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2020-ci il*

---

## Azərbaycan Respublikasının “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” 2019-cu il 9 aprel tarixli 1559-VQD nömrəli və “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” 2019-cu il 9 aprel tarixli 1560-VQD nömrəli qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 9 aprel tarixli 1559-VQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 801) 2-ci maddəsində “2020” rəqəmləri “2021” rəqəmləri ilə əvəz edilsin.

**Maddə 2.** “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 9 aprel tarixli 1560-VQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 802) 2-ci maddəsində “2020” rəqəmləri “2021” rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2020-ci il*

---

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048, № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408, № 12 (I kitab), maddə 2532; 2019, № 1, maddə 35, № 4, maddə 570, № 5, maddələr 796, 804, № 7, maddə 1182, № 8, maddə 1380; 2020, № 1, maddə 1, № 5, maddə 522, № 7, maddə 832; Azərbaycan Respublikasının 2020-ci il 30 sentyabr tarixli 171-VIQD nömrəli, 6 oktyabr tarixli 182-VIQD və 185-VIQD http://e-qanun.az/framework/46280 nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 105-ci maddə üzrə:

1.1. 1-ci hissənin doqquzuncu - on beşinci abzasları müvafiq olaraq onuncu - on altıncı abzaslar hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda doqquzuncu abzas əlavə edilsin:

“Zəfər Günü (noyabrın 8-i);”;

1.2. 2-ci hissəyə “Silahlı Qüvvələri günü,” sözlərindən sonra “Zəfər Günü,” sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 106-1-ci maddə əlavə edilsin:

**“Maddə 106-1.** Azərbaycan Respublikasında Anım Günü

Hər il sentyabrın 27-si - Azərbaycan Respublikasının işğal altında olan torpaqlarının azad edilməsi uğrunda həlak olmuş şəhidlərin xatirəsini yad etmə günü - Azərbaycan Respublikasında Anım Günüdür.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2020-ci il*







# Prezident İlham Əliyevin Qarabağın inkişaf perspektivləri ilə bağlı fikirləri İtaliya mətbuatının diqqət mərkəzində olub

İtaliyanın nüfuzlu "İl Giornale" qəzeti, "Notizie Geopolitiche" analitik-informasiya portalı, "MSN Notizie" saytında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilmiş müşavirədə dövlət başçısının ötən il ölkəmizdə siyasi, iqtisadi, sosial sahələrdə baş vermiş əsas hadisələr, eləcə də 2021-ci il üzrə planlar ilə bağlı açıqlamalarına dair məqalələr dərc olunub.

AZƏRTAC xəbər verir ki, yazılarda Prezident İlham Əliyevin fikirlərinə istinadən 2020-ci ilin bütün ölkələr üçün iqtisadi sahədə ağır il olduğu, amma Azərbaycanın digər ölkələrə nisbətən bu vəziyyətdən daha az itkilərlə çıxdığı, 2020-ci ildə Azərbaycanda qeyri-neft sənayesinin 11 faizdən çox artdığı, bunun da məhz şaxələndirmə hesabına əldə edildiyi və bunun real iqtisadiyyatın, qeyri-neft iqtisadiyyatının inkişafı demək olduğu bildirilib.

Azərbaycanın dövlət başçısının 2020-ci ildə ölkədə kənd təsərrüfatının 2 faiz, orta əməkhaqqı və orta pensiyaların təqribən 13-14 faiz artdığını, koronavirusla mübarizə üçün vəsaitlər xərclənsə də, müharibə aparılsa da, digər xərclər, müavinətlər və sosial paketlər olsa da, ölkənin valyuta ehtiyatlarının qorunduğunu və Dövlət Neft Fondunun vəsaitinin 0,5 faiz artdığını bildirdiyi diqqətə çatdırılıb.

Qeyd olunub ki, Prezident İlham Əliyev 2020-ci ilin sonunda - dekabrın 31-də "Cənub qaz dəhlizi"nin tam istismara verildiyini bildirib. Azərbaycanın dövlət başçısının bununla bağlı fikirlərindən sitat gətirilib: "Onun son seqmenti olan TAP istismara verildi. Azərbaycan qazı tarixdə ilk dəfə olaraq artıq Avropa məkanındadır. Bu, bizim tarixi nailiyyətimizdir. Çünki "Cənub qaz dəhlizi"nin təşəbbüskarı da bizik. Əsas maliyyə yükünü də biz öz üzərimizə götürmüşük. Bir çox ölkələri birləşdirən bu layihə gələcəkdə o ölkələr və digər Avrasiya ölkələri arasında yeni əməkdaşlıq formatının təməlini qoyur. Bu əməkdaşlıq formatı bu gün artıq özünü nəqliyyat sektorunda, ticarət sektorunda göstərir, ondan sonra digər sektorlarda göstərəcək. Biz Avrasiyanın enerji xəritəsini yenidən tərtib etdik. Biz bir-birinə bağlı olan 3500 kilometr uzunluğunda 3 qaz kəmərini inşa etdik. "Şahdəniz-2" layihəsini istismara verdik və artıq Avropa istehlakçıları Azərbaycan qazını alırlar. Bu, həm onlar, həm də bizim üçün faydalıdır. Eyni zamanda, digər layihələr üzrə də uğurlu işlər aparılıb. Əminəm ki, bu layihələrin işlənməsi bizə əlavə dividendlər gətirəcək - həm iqtisadi, həm siyasi".

Yazılarda Prezident İlham Əliyevin beynəlxalq qurumların Azərbaycanda gedən işlərə verdikləri qiymətlə bağlı fikirlərinə də yer verilib: "Dünya Bankının "Doing Business" proqramında 190 ölkə arasında Azərbaycan 28-ci yerdədir. Azərbaycan 10 ən islahatçı ölkə sırasına daxil edilmişdir. Davos Ümumdünya İqtisadi Forumunun hesabatının bəzi parametrlərini qeyd etmək istərdim. Əhalinin elektrik təchizatı səviyyəsi - dünya miqyasında Azərbaycan ikinci yerdədir. Hökumətin dəyişməyə cavabdehliyi, yəni ki, islahatçı obrazı əmsalına görə Azərbaycan dünya miqyasında beşinci yerdədir. Hökumətin uzunmüddətli strategiyası - Azərbaycan 10-cu yerdədir. Hökumətin siyasi sabitliyi təmin etməsi - Azərbaycan 11-ci yerdədir. İnfrastruktur layihələri ilə bağlı - dəmir yolu xidmətlərinin səmərəliliyi 11-ci yerdədir. Hava yolları xidmətlərinin səmərəliliyi - 12-ci yer. Avtomobil yollarının keyfiyyəti - 24-27-ci yerlərdəyik. Bu hesablama inkişaf etməkdə olan 74 ölkə arasında aparılmışdır. İnklüziv inkişaf indeksi üzrə Azərbaycan üçüncü yerdədir".

Məqalələrdə Prezident İlham Əliyevin müşavirədə 2021-ci ilin planlarından danışaraq dövlət investisiya planında təsbit olunmuş ənənəvi işlərlə yanaşı, azad edilmiş ərazilərdə görüləcək işlər barədə məlumat verdiyi də bildirilib. Bu xüsusda, birinci layihə kimi Şuşa şəhərinə yol layihəsi, Şuşa şəhərinə getmək üçün yeni yol çəkilişinin mütləq olduğu, bu sahədə işlərə artıq start verildiyi, artıq Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa yolunun inşa olunmağa başlandığı və bu yolun nəzərdə tutulmuş qrafikdən daha tez bir zamanda inşa ediləcəyi oxucuların diqqətinə çatdırılıb.

Prezident İlham Əliyevin digər vacib layihə kimi Toğanalı-Kəlbəcər yolu layihəsinə də start verildiyini və relyefin mürəkkəbliyini nəzərə alaraq, bu yolun üstündə tunellərin tikiləcəyini, habelə Horadizdən Zəngilana, oradan Qubadlıya və oradan da Laçın rayonuna qədər yol çəkilməsi üçün hazırlıq işlərinə başlandığını, Toğanalıdan Kəlbəcərə çəkiləcək yolun Laçın rayonuna da davam etdiriləcəyini, beləliklə, iki tərəfdən, - həm şimaldan, həm cənubdan Laçın və Kəlbəcər rayonlarına yol-nəqliyyat infrastrukturunun yaranacağını bildirdiyi qeyd olunub.

Eyni zamanda, dövlət başçısına istinadla Laçın və ya Kəlbəcər rayonunun ərazisində müasir beynəlxalq hava limanının tikilməsi üçün yer axtarıldığı, ya Laçın, ya da Kəlbəcərdə yeni beynəlxalq hava limanının tikiləcəyi, Füzuli şəhərində də beynəlxalq hava limanının inşa ediləcəyi, bunun həm Qarabağ bölgəsinin inkişafı üçün lazım olduğu, eyni zamanda, Şuşaya gəlmək istəyən xarici qonaqların rahat Füzuliyə enib, oradan avtomobillə Şuşaya gedəcəkləri, aeroportun tikintisi ilə paralel olaraq artıq Füzuli şəhərindən beynəlxalq uçuşların təşkili ilə bağlı ilkin araşdırmaların aparılmalı olduğu və aeroportun açılışından sonra qonşu ölkələrin bəziləri ilə hava nəqliyyatının təmin edilməsi üçün AZAL-ın müvafiq iş aparmalı olduğu vurğulanıb.

Yazılarda bildirilib ki, Prezident İlham Əliyev iki beynəlxalq aeroportun Qarabağ zonasını bərpa etməyə, yüklərin daşınmasına, turizmin inkişafına kömək göstərəcəyini, eyni zamanda, insanların oraya qayıdandan sonra onların rahatlığı üçün böyük əhəmiyyətinin olacağını deyib.

Müşavirədə dövlət başçısının bölgədə çəkiləcək yeni dəmir yolu xətləri barədə də məlumat verdiyi bildirilib, bu xüsusda Horadiz-Füzuli və Füzuli-Şuşa dəmir yolunun tikintisinin də nəzərdə tutulduğu, bunun da Şuşaya rahat gediş-gəlişi təmin etmək üçün çox vacib olduğu, Horadiz-Ağbənd dəmir yolunun da yenidən tikiləcəyi, bu yolun Naxçıvan dəhlizini açmaq üçün xüsusi əhəmiyyət daşıdığı qeyd olunub. Vurğulanıb ki, tədbirdə Azərbaycan Prezidentinin Naxçıvan dəhlizinin açılması üçün konkret işlərin getdiyi, bu dəhlizin açılmasının noyabrın 10-da imzalanmış bəyanatda öz əksini tapdığı, bu yolun mütləq açılacağı və bölgəyə yeni imkanlar gətirəcəyini deyib. Dövlət başçısı bildirib: "Bu yoldan həm Azərbaycan, həm Türkiyə, həm Rusiya, həm Ermənistan, həm də İran istifadə edəcək. Bu yol gələcəkdə çoxtərəfli əməkdaşlıq üçün xüsusi əhəmiyyətə malikdir. Biz öz ərazimizdə Horadiz-Ağbənd dəmir yolunun tikintisinə başlayacağıq. Bununla paralel olaraq Naxçıvan Muxtar Respublikasında dəmir yolunun bərpası və müasirləşdirilməsi istiqamətində də işlər aparılacaq. Nəzərə alsaq ki, Ermənistan dəmir yolları Rusiya dəmir yollarının mülkiyyətindədir, bizim tərəf müqabilimiz, əlbəttə, Rusiyadır. Çünki Ermənistan dövlətinin Mehri dəmir yolu layihəsinə heç bir aidiyyəti yoxdur. Biz bu məsələni Rusiya ilə müzakirə edirik. Çünki Rusiya dəmir yolları Ermənistan dəmir yollarının sahibidir. İlkin müzakirələr müsbətdir".

Həmçinin bildirilib ki, Azərbaycan Prezidenti azad edilmiş torpaqlarda kənd təsərrüfatı məhsuldarlığının artırılması üçün suvarma işlərinin sürətlə getməli və bu ərazilərdə ən müasir suvarma sistemlərinin təşkil edilməli olduğunu, orada su mənbələrinin də kifayət qədər çox olduğunu deyib.

Habelə dövlət başçısının işğaldan azad olunmuş ərazilərdə enerji təchizatı ilə bağlı göstərişlər verdiyi, həm ənənəvi, həm bərpaolunan enerji növlərinin həmin ərazilərdə geniş vüsət alacağını və Qarabağ bölgəsinin yaşıl enerji zonası kimi dünya üçün bir nümunə olacağını dediyi qeyd olunub.

Prezident İlham Əliyevin Qarabağın turizm potensialı ilə bağlı fikirlərindən də sitat gətirilib: "Nəzərə alsaq ki, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək".

Eyni zamanda, bildirilib ki, Prezident İlham Əliyev müharibənin başa çatmasından iki aydan da az vaxt keçsə də, artıq çox böyük işlər görüldüyünü qeyd edib. O deyib: "Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam. Ona görə 2021-ci il bu baxımdan çox əlamətdar olmalıdır. Məhz 2021-ci ildə Azərbaycan xalqı və bütün dünya görəcək ki, bizim niyyətimiz həyatda öz əksini tapır, bizim planlarımız həyatda gerçəkləşir".

# Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının növbəti iclası olub

Yanvarın 12-də Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının sədri Əli Əsədovun rəhbərliyi ilə Holdinqin Müşahidə Şurasının növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda 2021-ci il ərzində Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə veriləcək 17 portfel şirkətin rəhbərləri ilə görüş keçirilib və Azərbaycan Prezidentinin 2020-ci il 5 noyabr tarixli fərmanında şirkətlərə verilmiş tapşırığın icra vəziyyəti və digər cari məsələlər müzakirə edilib.





# Parlamentdə YAP-ın ilk ərazi təşkilatının tədbiri keçirilib

Yanvarın 11-də Milli Məclisdə Yeni Azərbaycan Partiyasının (YAP) Səbail rayonu üzrə 2 saylı İlk Ərazi Təşkilatının İdarə Heyətinin videoformatda geniş iclası keçirilib.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, tədbir iştirakçılarını salamlayan Milli Məclisin sədri Sahibə Qafarova iclasın işinə uğurlar arzulayıb, 2021-ci ildə qarşıda duran vəzifələrdən danışıb. Spiker əvvəlcə yanvarın 6-da Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə videoformatda keçirilən 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirəyə toxunub. Bildirib ki, həmin tədbirdə ötən ilin yekunlarını çox geniş və konseptual şəkildə təhlil edən dövlət başçısı işğaldan azad olunmuş ərazilərdə görüləcək quruculuq işləri və Ermənistan rəhbərliyinin təxribatçı davranışları ilə bağlı çox dəqiq mesajlar verib.

Sədr vurğulayıb ki, Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi, 2020-ci ilin ən əsas hadisəsi və ən əsas nəticəsi Vətən müharibəsində qazanılmış tarixi Zəfər, torpaqlarımızın işğaldan azad olunmasıdır. Sahibə Qafarova əminliklə bildirib ki, Vətən müharibəsində qazanılmış Zəfər nəinki 2020-ci ilin ən yaddaqalan hadisəsidir, eyni zamanda, tariximizə parlaq hərflərlə yazılmış, milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq möhtəşəm qələbədir. Bundan sonra yeni bir mərhələnin - quruculuq dövrünün başlandığını qeyd edən spiker deyib ki, bu dövrdə görüləcək tədbirlər, qarşıda duran vəzifələr müşavirədə Prezident İlham Əliyev tərəfindən aydın şəkildə ifadə edildi və əminəm ki, bu vəzifələrin yerinə yetirilməsi Azərbaycanın uğurla, inamla inkişafına töhfə verəcək.

YAP-ın Səbail rayonu üzrə Milli Məclisdə yaradılmış 2 saylı İlk Ərazi Təşkilatının iclasında 2020-ci ildə ölkəmizdə ilk dəfə olaraq növbədənkənar parlament seçkiləri keçirildiyini xatırladan spiker bildirib ki, VI çağırış Milli Məclisin martın 10-da keçirilən ilk iclasında Azərbaycan Prezidenti İlham Əliyevin çıxışında verdiyi tövsiyələr parlamentin fəaliyyətinin əsas istiqamətlərini təşkil edib. Ötən dövrdə Azərbaycan Prezidentinin uzaqgörən daxili və xarici siyasətini parlament səviyyəsində dəstəkləmək üçün Milli Məclisdə zəruri işlər həyata keçirilib. O cümlədən Vətən müharibəsində Azərbaycanın parlament diplomatiyasının bütün imkanları ölkəmizin haqq işi barədə dünya ictimaiyyətini məlumatlandırmağa, Ermənistanın hərbi-siyasi rəhbərliyinin törətdiyi təxribatların beynəlxalq auditoriyaya çatdırılmasına səfərbər olunub.

İclasda qeyd edilib ki, ötən il VI çağırış Milli Məclisin ikisi növbədənkənar olmaqla, dörd sessiyası keçirilib. Parlamentin fəaliyyətinin səmərəliliyinin daha da artırılması, müasir tələblər çərçivəsində qurulması üçün müxtəlif addımlar atılıb.

Azərbaycanın əldə etdiyi uğurlarda Yeni Azərbaycan Partiyasının da böyük rolunun olduğunu vurğulayan parlamentin sədri bildirib ki, bu gün YAP-ın ideyaları, fəaliyyəti xalqımız tərəfindən dəstəklənir. Hazırda 760 mindən artıq üzvünün olması YAP-ın potensialını açıq şəkildə nümayiş etdirir.

Milli Məclisin sədri çıxışında 1992-ci il noyabrın 21-də Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvanda təsis edilən Yeni Azərbaycan Partiyasının ötən 28 ildə şərəfli inkişaf yolu keçdiyini vurğulayıb. O dövrün gərgin ictimai-siyasi hadisələri fonunda YAP-ın yaranmasını Azərbaycanın dövlətçilik tarixində dönüş nöqtəsi kimi dəyərləndirib. Bildirib ki, Prezident İlham Əliyevin rəhbərlik etdiyi YAP bu gün Azərbaycanın aparıcı siyasi qüvvəsidir və Cənubi Qafqazın ən böyük partiyasıdır.

Yeni Azərbaycan Partiyasının cəmiyyətin bütün təbəqələrindən olan insanlar, həmçinin fəal qadınlar üçün geniş imkanlar yaratdığını söyləyən Sahibə Qafarova Azərbaycanın Birinci vitse-prezidenti, YAP-ın sədr müavini Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinin bütövlükdə Azərbaycan qadınları üçün nümunəyə və həyat məktəbinə çevrildiyini qeyd edib. Həmçinin Azərbaycan gənclərinin öz siyasi gələcəklərini məhz YAP-a bağladıqlarını deyib. Vətən müharibəsində YAP-ın üzvü olan gənclərin də torpaqlarımızın azadlığı uğrunda böyük qəhrəmanlıqlar və şücaət göstərdiyini qürurla qeyd edib.

Sonda Milli Məclisin sədri ilk partiya təşkilatının İdarə Heyətinə seçiləcək üzvlərə qarşıda duran vəzifələrin icrasında uğurlar arzulayıb.

Sonra iclasda YAP Səbail rayonu üzrə Azərbaycan Respublikası Milli Məclisinin 2 saylı İlk Ərazi Təşkilatının (İƏT) fəaliyyətinə dair hesabat dinlənilib. Hesabatı slaydlar formatında təqdim edən ilk partiya təşkilatının sədr əvəzi, Milli Məclis Aparatının iqtisadi və sosial qanunvericilik şöbəsinin Əmək qanunvericiliyi sektorunun müdiri Adil Vəliyev statistik icmal, təşkilatda təmsil olunan deputatların, qadınların və gənclərin say nisbəti, onların fəallıq əmsalı, Milli Məclisin struktur bölmələri üzrə İƏT üzvlərinin faiz indikatoru, habelə islahatlar çərçivəsində İƏT-in fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər paketi barədə ətraflı məlumat verib.

Diqqətə çatdırılıb ki, təşkilat öz fəaliyyətini əsasən YAP-ın sədri, Azərbaycan Prezidenti İlham Əliyevin dövlət və partiya tədbirlərindəki nitqlərində səsləndirdiyi müddəaların, habelə partiyanın Proqram və Nizamnaməsindən irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində qurub.

İclasda YAP-ın Təşkilat şöbəsinin müdiri, Milli Məclisin deputatı Aydın Hüseynov çıxış edərək əvvəlcə VI çağırış Milli Məclisin fəaliyyətində tətbiq olunan yeniliklərdən danışıb, həyata keçirilən islahatları yüksək qiymətləndirib. O, həmçinin təqdim edilən hesabatın və ilk partiya təşkilatının fəaliyyətinin qənaətbəxş olduğunu bildirib.

YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev çıxış edərək bu formatda hesabat-seçki iclasının ilk dəfə keçirildiyini bildirib. Qeyd edib ki, ilk partiya təşkilatının ötən dövrdəki fəaliyyəti uğurlu olub.

İlk partiya təşkilatının üzvü, Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov çıxışında son dövrlər parlamentdə aparılan islahatların uğurlu nəticələrini qeyd edib. O, həmçinin YAP-ın yaranması, keçdiyi inkişaf yolu haqqında geniş məlumat verərək qeyd edib ki, zamanın tələbindən irəli gələrək yaradılan Yeni Azərbaycan Partiyası ötən 28 ildə çox böyük inkişaf yolu keçərək Azərbaycan xalqına və dövlətçiliyinə ləyaqətlə xidmət edib.

İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Nizami Səfərov ilk təşkilatın fəaliyyəti haqqında müsbət fikirlərini diqqətə çatdırıb.

Müzakirələr başa çatdıqdan sonra hesabat yekdilliklə qənaətbəxş sayılıb.

Sonra gündəlikdəki ikinci məsələyə baxılıb, təşkilatın İdarə Heyətinin yeni tərkibi seçilib. Adil Vəliyev YAP Səbail rayonu üzrə Azərbaycan Respublikası Milli Məclisinin 2 saylı İlk Ərazi Təşkilatı İdarə Heyətinin sədri seçilib. İclasda, həmçinin sədr müavinləri və İdarə Heyətinin yeni tərkibi də müəyyənləşib.

# Azərbaycanın döyüş meydanında qazandığı Qələbə diplomatik müstəvidə davam etdirilir

Yanvarın 11-də Moskvada Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirildi. Ermənistan hakimiyyətinin məğlubiyyəti qəbul edərək kapitulyasiya aktını imzaladığı vaxtdan sonra Azərbaycan Ordusunun qazandığı Qələbəni digər ermənipərəst qüvvələrin qəbul etməsi üçün bu görüş mühüm əhəmiyyət daşıyırdı. Eyni zamanda, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın gücləndirilməsi ilə bağlı bütün detalların müzakirə edilməsi məqsədi daşıyırdı.



AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin sədr müavini Adil Əliyev bildirib.

Adil Əliyev deyib ki, Ermənistanın baş naziri Nikol Paşinyanın həmin görüşdə iştirak etməsinin qarşısını almaq məqsədilə erməni xalqı küçələrə axışmış, hətta İrəvanda aeroporta gedən yolu da bağlamışdılar. Erməni xalqı düşünürdü ki, bu görüşdə iştirak etmək Ermənistanın öz dizçökməsini tam qəbul etməsi, siyasi məğlubiyyətinin təsdiq nöqtəsi idi.

Son ana qədər Ermənistan müxalifəti və Rusiyadakı çoxsaylı erməni lobbisi hər vəchlə görüşün pozulmasına çalışdı, Paşinyanı görüşdə iştirak etməməyə, məğlubiyyəti bir daha etiraf etməməyə çağırdı. Amma bütün bunlara baxmayaraq, Paşinyan həmin görüşdə iştirak etdi...

Aydın şəkildə hiss olunurdu ki, erməni baş nazir cəmiyyətdə itirdiyi nüfuzunu bərpa etmək üçün Moskva danışıqlarına ümid edir. Amma, o, bu dəfə də uduzdu. Görüşdə müzakirə olunan qərarları qeyd-şərtsiz qəbul etdi. Paşinyan müzakirələrin Minsk qrupu formatında aparılmasına maraqlı olmasına, bu məqsədlə də öz havadarlarına mütəmadi nikbin məlumatlar ötürməsinə baxmayaraq, görüş Azərbaycanın maraqları çərçivəsində baş tutdu...

Prezident İlham Əliyevin həmin görüşə qalibiyyət qazanmış ölkənin başçısı, zəfər çalan Ordunun Ali Baş Komandanı olaraq qatılması, habelə imzalanmış kapitulyasiya şərtlərinin dəfələrlə Ermənistan tərəfindən pozulmasına cəhdlər edilməsi, digər qanlı insidentlərin baş verməsinə diqqət çəkməsi ilə Ermənistan hökumətinə və işğalçı ölkənin havadarlarına çox ciddi siyasi mesaj verilmiş oldu.

Aydın məsələdir ki, qələbəni qazanmaq nə qədər çətindirsə, daimi qələbəni qoruyub saxlamaq da bir o qədər çətindir. Biz İlham Əliyevin timsalında hər iki amilin diqqətdə olmasının, bir rəhbər tərəfindən ümumxalq mənafeyinin əsas ideal sayılmasının bariz nümunəsini gördük. Ona sonsuz ümid bəsləyən xalqını heç vaxt yanıltmayan Prezidentimiz tərəfindən döyüş meydanında qazanılmış Qələbəmiz diplomatik və siyasi müstəvidə də böyük uğurla davam etdirildi.

Milli Məclis sədrinin müavini qeyd edib ki, ötən il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın əsas hissəsindən biri də nəqliyyat və kommunikasiya xətlərinin qurulması idi. Moskvada dünən keçirilən görüş çərçivəsində humanitar və kommunikasiya məsələləri ilə bağlı üçtərəfli işçi qrupunun yaradılması barədə müzakirələr aparıldı və təsdiqləndi. Bu, özlüyündə ehtiva edir ki, qəbul edilən müddəalar qeyd-şərtsiz yerinə yetirilməzsə, üçtərəfli əməkdaşlıq formatı olmayacaq.

Biz həmişə deyirdik ki, Azərbaycanın savaşı haqq işidir, mübarizəmiz haqq uğrundadır. Bu səbəbdən də görüşdən əvvəl tərəfimizdən irəli sürülən və yeni bəyanatla təsbit olunmuş tələblər həm maraqlarımızı təmin edir, həm də bütün regionda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edir.

Diplomatik müstəvidə atılan bu addımlar da döyüş meydanında qazanılan qələbə qədər əhəmiyyətlidir, onun məntiqi davamıdır. İşğaldan azad edilmiş ərazilərimizdə nəqliyyat infrastrukturunun qurulması təkcə Ermənistanla deyil, bütün qonşu dövlətlərlə sabit və dinc bir təmasın qurulmasına təminat verəcək. Çünki Azərbaycan bu məsələdə sülhpərvər və yardımsevər ideyalar daşıdığını hər zaman sübut etmiş bir ölkədir.

10 noyabr bəyanatında Naxçıvanla birbaşa quru yolun yaradılması nəzərdə tutulmuşdu. Dünən Moskvada qəbul edilən bəyanat artıq bu layihənin qısa bir müddət ərzində həyata keçirilməsini şərtləndirən mühüm amilə çevrildi, siyasi iradənin və diplomatik bacarıqların uğurlu yekunu oldu. Mehri dəhlizinin açılması ilə uzun illərdir təcrid vəziyyətinə düşmüş Naxçıvana Azərbaycanın hər yerindən birbaşa quru yolla gediş-gəliş bərpa olunacaq. Hamıya məlumdur ki, 30 ilə yaxın idi Naxçıvana gediş-gəliş ya hava nəqliyyatı vasitəsilə, ya İran İslam Respublikasının ərazisindən keçməklə mümkün olurdu. Təbii ki, tranzit olaraq başqa ölkənin ərazisindən istifadə etmək həm maddi cəhətdən baha başa gəlir, həm də daşımaların daha ləng həyata keçirilməsi ilə nəticələnirdi... Mehri dəhlizi nəhayət ki, bu narahatlıqlara son qoyacaq.

Bu dəhliz həm də bizə Azərbaycanı Türkiyə ilə birləşdirəcək dəmir yolunun açılması kimi zəruri bir üstünlük qazandıracaq. Açılacaq Şərq-Qərb nəqliyyat dəhlizinin tərkib hissəsi olan yeni yol qardaş ölkə ilə əlaqələrimizi daha da gücləndirəcək, ölkəmizin geoiqtisadi əhəmiyyətini artıracaq. Naxçıvana daşımalar daha qısa müddət ərzində, daha az xərclə başa gələcək.

...Demək olar ki, Ermənistan bu görüşdən heç nə qazanmadı. Şərtlərimizi qəbul etməklə yanaşı, yeganə istəkləri noyabrın 10-dan sonra ələ keçirilmiş erməni diversant-terrorçularının azad olunması olsa da, bu məsələ də həllini tapmadı. Sonda Ermənistan baş naziri mətbuata açıqlamasında erməni diversant-terrorçularını azad etmənin mümkün olmadığı üçün görüşün nəticələrindən məyus olduğunu aydın şəkildə bəyan etdi.

Bu görüş - diplomatik müstəvidə qazanılmış bu qələbə ilə Azərbaycan yalnız Ermənistan tərəfinə yox, görüşlə bağlı qabaqcadan məntiqsiz fikirlər irəli sürən, uğurlarımıza kölgə salmağa cəhd edən bütün antimilli qüvvələrə çox ciddi zərbə vurmuş oldu.

# Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Ötən əsrin 90-cı illərində Azərbaycan Respublikasında dövlət müstəqilliyi bərpa edildikdən sonra müasir medianın formalaşması və inkişafı üçün geniş imkanlar yaranmışdır. Həyata keçirilmiş köklü islahatlar nəticəsində ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran digər süni maneələr aradan qaldırılmış, medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası formalaşdırılmış, redaksiyaların davamlı inkişafı, onların iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin sərbəst fəaliyyətinin təmin edilməsi məqsədilə ardıcıl tədbirlər görülmüşdür.

Ötən dövr ərzində Azərbaycan mediası özünəməxsus inkişaf yolu keçmiş, ölkəmizdə və dünyada baş verən hadisələrlə bağlı cəmiyyətin məlumatlandırılması, xalqımızın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir. Bununla yanaşı, Azərbaycanda cəmiyyət həyatının hər bir sahəsini əhatə edən köklü islahatların həyata keçirildiyi, habelə bütün dünyanı əhatə edən vahid informasiya məkanında yeniliklərin intensiv xarakter aldığı, kommunikasiya vasitələrinin sürətlə inkişaf etdiyi, mütərəqqi texnologiyaların, iş metodlarının tətbiq olunduğu müasir dövrdə media sahəsində keyfiyyət dəyişikliklərinə ehtiyac vardır.

Qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun olaraq modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi və digər mühüm şərtləri özündə birləşdirən innovativ təkamülün yaratdığı imkanlardan Azərbaycan mediasının daha çox bəhrələnməsi, onun şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması üçün bu sahədə əsaslı islahatlar aparılmasına zərurət yaranmışdır.

Azərbaycan Respublikasında medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradılsın.

2. "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (bundan sonra - Agentlik) Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun hüquqi varisidir, onun hüquq və öhdəlikləri, habelə əmlakı Agentliyə keçir.

4. Agentliyin nizamnamə fondu 285 405 (iki yüz səksən beş min dörd yüz beş) manat təşkil edir və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır.

5. Müəyyən edilsin ki:

5.1. Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi sədr və 6 (altı) üzvdən ibarət Müşahidə Şurası həyata keçirir;

5.2. Agentliyin fəaliyyətinə cari rəhbərliyi Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi İcraçı direktor həyata keçirir;

5.3. Agentliyin saxlanma xərcləri və fəaliyyəti dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşir.

6. Agentliyin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

6.1. Azərbaycan Respublikasının Prezidentinə:

6.1.1. Agentliyin nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

6.1.2. Agentliyin idarəetmə orqanlarının yaradılması, idarəetmə orqanlarının rəhbərlərinin (üzvlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

6.1.3. Agentliyin ləğvi və yenidən təşkili;

6.1.4. nizamnaməsində nəzərdə tutulmayan məqsədlər üçün Agentliyin mənfəətinin dövlət büdcəsinə köçürülməsi barədə qərar qəbul edilməsi;

6.1.5. Agentliyin işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin təsdiqi;

6.1.6. Agentliyin təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə, filial və nümayəndəliklərin yaradılmasına razılıq verilməsi;

6.2. Agentliyə:

6.2.1. bu Fərmanın 6.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

7. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası:

7.1. "Media haqqında" Azərbaycan Respublikası qanununun layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

8.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

8.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

8.4. dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Agentliyin inzibati bina ilə təmin edilməsi və maddi-texniki təminatı məsələlərini həll etsin;

8.5. Agentlik "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun balansındakı əmlakın Agentliyin balansına verilməsini təmin etsin;

8.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

9. Agentlik:

9.1. Agentliyin işçilərinin say həddi və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləği barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

9.2. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun işçilərinin Agentlikdə müvafiq vəzifələrə təyin olunmaları ilə bağlı tədbirlər görsün və nəticəsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

9.3. Agentliyin dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etsin;

9.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

10. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

10.1. bu Fərmanın 4-cü hissəsində və 5.3-cü bəndində nəzərdə tutulan maliyyələşməni təmin etsin;

10.2. Agentliyin saxlanılması və fəaliyyəti üçün tələb olunan vəsaiti hər il üçün dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

11. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 yanvar 2021-ci il*

Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2021-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Nizamnaməsi

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (bundan sonra - Agentlik) medianın inkişafının dəstəklənməsi, media sahəsində mütəxəssislər hazırlanması və onların əlavə təhsilinin təşkili, audiovizual, çap, onlayn media subyektlərinin və informasiya agentliklərinin (bundan sonra - media subyektləri), habelə jurnalistlərin və digər media işçilərinin fəaliyyətinin, eləcə də media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması istiqamətində (bundan sonra - müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentlik ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Agentlik bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. Agentliyin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları, loqotipi (emblemi) vardır.

1.6. Agentliyin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. O, məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7. Agentliyin rəsmi adı aşağıdakı kimidir:

1.7.1. tam halda - Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi, qısaldılmış halda - MEDİA;

1.7.2. ingilis dilində tam halda - Media Development Agency of the Republic of Azerbaijan, ingilis dilində qısaldılmış halda - MEDIA.

1.8. Agentlik Bakı şəhərində yerləşir.

### 2. Agentliyin fəaliyyət istiqamətləri

2.0. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. müvafiq sahənin inkişafını təmin etmək;

2.0.2. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;

2.0.3. müvafiq sahədə aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təkliflərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

2.0.4. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

### 3. Agentliyin vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. fikir, söz və məlumat azadlığının, plüralizmin təmin edilməsi, media subyektləri ilə cəmiyyət və dövlət arasında münasibətlərin tənzimlənməsi məqsədilə normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq;

3.1.3. media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi istiqamətində tədbirlər görmək;

3.1.4. dövlət orqanları (qurumları) ilə media subyektləri arasında əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsinə şərait yaratmaq;

3.1.5. jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılmasına, o cümlədən sosial müdafiəsinə yönəldilmiş tədbirlər həyata keçirmək;

3.1.6. medianın inkişafına maliyyə təminatı yaratmaq məqsədilə tədbirlər görmək;

3.1.7. media sahəsində mütəxəssislərin hazırlanması və əlavə təhsilinin təşkili məqsədilə müvafiq tədbirlər həyata keçirmək;

3.1.8. media subyektlərinin xarici media subyektləri ilə əməkdaşlıq etməsi, qarşılıqlı əlaqələrin formalaşdırılması və həmin subyektlərin təcrübəsinin öyrənilməsinin stimullaşdırılması istiqamətində tədbirlər həyata keçirmək;

3.1.9. əhalinin və ya müəyyən təbəqənin maarifləndirilməsinə, ictimai normalara uyğun davranış qaydalarının formalaşdırılmasına, onların diqqətinin cəmiyyətdəki aktual məsələlərə cəlb edilməsinə yönəlmiş proqramları və materialları sifariş vermək və mediada yayımlanmasını təmin etmək;

3.1.10. audiovizual məhsulların istehsalı və yayımı üzrə dövlət sifarişçisi kimi çıxış etmək, bu məqsədlə müsabiqələr keçirmək;

3.1.11. cəmiyyətdə baş verən hadisələrin, dövlət siyasətinin mediada ədalətli, balanslı, obyektiv, qərəzsiz işıqlandırılmasına, jurnalistlərin peşəkarlığının artırılmasına, media subyektlərində peşə etikası (etik davranış) qaydalarına riayət edilməsinə, beynəlxalq informasiya mübadiləsində yeni imkanlar açan müasir informasiya-kommunikasiya texnologiyalarının, innovasiyaların tətbiqinə, vətəndaşın, cəmiyyətin və dövlətin informasiya təhlükəsizliyinin təmin olunmasına istiqamətlənmiş layihələrin həyata keçirilməsi üçün tədbirlər görmək;

3.1.12. media subyektlərinin inkişafına, iqtisadi müstəqilliyinin gücləndirilməsinə, fəaliyyətinin təkmilləşdirilməsinə yönəldilən, həmçinin Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 31 iyul tarixli 2957 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na uyğun olaraq, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsini təşkil etmək;

3.1.13. media subyektləri və jurnalistlərlə bağlı Agentlik tərəfindən maliyyələşdirilən layihələrin həyata keçirilməsi ilə əlaqədar media subyektlərinin və jurnalistlərin hesabatlarını nəzərdən keçirmək və qiymətləndirmə aparmaq;

3.1.14. media subyektlərinin fəaliyyətinə mane olan problemlərin həllinə dair təkliflərini dövlət və yerli özünüidarəetmə orqanlarına təqdim etmək;

3.1.15. dövlət orqanları (qurumları) ilə media subyektləri arasında əməkdaşlığın genişləndirilməsi, dövlət orqanlarının (qurumlarının) media subyektləri ilə əlaqələrinin təkmilləşdirilməsi, qarşılıqlı etimadın artırılması ilə əlaqədar tədbirlər həyata keçirmək;

3.1.16. media subyektlərinin fəaliyyəti ilə bağlı təhlillər aparmaq, ictimai rəyin öyrənilməsini təşkil etmək;

3.1.17. çap mediası məhsullarının abunə və satışının təşkilinə dəstək göstərilməsi istiqamətində tədbirlər görmək;

3.1.18. onlayn mediada yayımlanan informasiya qanunla nəzərdə tutulan tələblərə cavab vermədikdə, bununla bağlı tədbir görülməsi məqsədilə aidiyyəti üzrə müraciət etmək;

3.1.19. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və Agentliyin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.20. çap mediası və onlayn media sahəsində inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat vermək;

3.1.21. dövlət orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.22. fəaliyyət istiqamətləri üzrə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.23. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.24. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Agentlik əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.25. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.26. Agentliyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.27. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.28. Agentliyin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.29. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində tədbirlər görmək;

3.1.30. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.31. müvafiq sahədə peşəkar mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsini təmin etmək;

3.1.32. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Agentliyin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

3.2.2. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.3. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.4. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.5. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.6. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.7. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.8. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.9. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.10. Azərbaycan Respublikası Prezidentinin razılığı ilə təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.11. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.12. media sahəsində peşə (etik) davranış qaydalarına riayət edilməsi üzrə araşdırmalar aparmaq, onların nəticələrini dərc etmək və bu istiqamətdə tövsiyələr hazırlamaq;

3.2.13. media sahəsində peşə etikası (etik davranış) məsələləri ilə bağlı media subyektləri, jurnalist təşkilatları və müstəqil ekspertlərlə əməkdaşlıq etmək;

3.2.14. Agentliyin maliyyələşdirdiyi layihələr üzrə müqavilə şərtlərini pozan media subyektlərini belə layihələrdə iştirakdan məhrum etmək;

3.2.15. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sosial reklamlar sifariş vermək;

3.2.16. media savadlılığının artırılması məqsədilə tədbirlər həyata keçirmək;

3.2.17. medianın inkişafına dəstək layihələri üzrə elektron informasiya bankını formalaşdırmaq;

3.2.18. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 4. Agentliyin idarə olunması

4.1. Agentlik öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Agentliyin idarəetmə orqanları Müşahidə Şurası və İcraçı direktordur.

4.3. Agentliyin Müşahidə Şurası (bundan sonra - Şura) Agentliyə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.4. Şura Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi sədr və 6 (altı) üzvdən ibarətdir.

4.5. Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

4.6. Şura qərar qəbul etməkdə müstəqildir.

4.7. Şuranın vəzifələri aşağıdakılardır:

4.7.1. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək və müvafiq sənədlər (o cümlədən Agentliyin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.7.2. Agentliyin inkişaf istiqamətlərini, strateji məqsədlərini və planlarını müəyyən etmək;

4.7.3. Agentliyin fəaliyyətinə nəzarət etmək;

4.7.4. Agentliyin strukturunu və əməyin ödənişi fondunu təsdiq etmək, işçilərinin say həddinə və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinə dair təkliflər vermək, o cümlədən Agentliyin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;

4.7.5. Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Agentliyin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin Agentliyin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.7.6. Agentliyin maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.7.7. Agentliyin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.7.8. İcraçı direktorun fəaliyyətinə nəzarət etmək və onun fəaliyyətini yoxlamaq;

4.7.9. Şura üzvlərinin və İcraçı direktorun müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.7.10. Agentliyin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.7.11. Agentliyin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.7.12. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.7.13. Agentliyin daxili audit bölməsinin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.7.14. Agentliyin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.7.15. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

4.8. Şuranın sədri ildə azı bir dəfə Şuranın iclasını çağırır və iclaslara sədrlik edir. Şuranın iclaslarının keçirilməsi təşəbbüsü ilə Şuranın üzvü və ya İcraçı direktor çıxış edir. Şuranın iclasları Şura üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın iclasında qərarlar hər üzvün bir səsi olmaqla sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.9. Şuranın üzvlərinə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.10. Şuranın iclasında İcraçı direktor da iştirak edə bilər.

4.11. İclasın gündəliyinə Şuranın hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.12. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla qərar qəbul edilə bilməz.

4.13. Şuranın iclasının nəticəsi Şura üzvlərinin və katibinin imzaladıqları protokolda əks olunmaqla rəsmiləşdirilir. Şuranın katibi Şuranın iclasında iştirak edə bilmədikdə, Şuranın sədri onu əvəz edəcək şəxsi təyin edir. Şura protokolu təsdiq edərək İcraçı direktora göndərir.

4.14. Şuranın katibini Şuranın üzvü olmayan əməkdaşlar sırasından Şuranın sədri təyin edir və Şuranın katibi Şuranın sədrinə hesabat verir.

4.15. Şuranın katibi:

4.15.1. Şuranın iclaslarını təşkil edir;

4.15.2. Şuranın iclaslarının keçiriləcəyi yer və vaxt barədə Şura üzvlərinə, habelə İcraçı direktora və Şuranın iclaslarına dəvət olunan şəxslərə iclasa azı 3 (üç) iş günü qalmış yazılı məlumat verir;

4.15.3. Şuranın iclaslarının protokollarını tərtib edir və imzalanmaq üçün Şura üzvlərinə təqdim edir;

4.15.4. Şuranın qərarlarının layihələrini hazırlayır, baxılmaq və imzalanmaq üçün Şuranın sədrinə təqdim edir;

4.15.5. Şuranın qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.

4.16. Şuranın sədri:

4.16.1. Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir;

4.16.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclasları çağırır və iclaslara sədrlik edir;

4.16.3. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya İcraçı direktorun müraciəti əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

4.16.4. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

4.17. Şuranın üzvləri:

4.17.1. Şuranın səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.17.2. Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulan materiallarla əvvəlcədən tanış olurlar;

4.17.3. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

4.17.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxmaq barədə təklif verirlər;

4.17.5. Şuranın qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.18. Şura üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.19. İcraçı direktor Agentliyin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir. İcraçı direktor Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir. İcraçı direktorun onun təqdimatı əsasında Müşahidə Şurası tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır.

4.20. İcraçı direktor müvəqqəti olmadıqda, müvafiq əmrlə onun müavinlərindən biri onu əvəz edir.

4.21. İcraçı direktor və onun müavinləri adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.22. İcraçı direktorun vəzifələri aşağıdakılardır:

4.22.1. Agentliyin fəaliyyətini təşkil etmək;

4.22.2. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün Şuraya təkliflər vermək və sənədlər təqdim etmək;

4.22.3. Şuranın qərarlarını icra etmək;

4.22.4. aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.22.5. Agentliyin strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.22.6. bu Nizamnamənin 3.1.26-cı yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.22.7. cari və operativ məsələlər barədə Şuranı məlumatlandırmaq;

4.22.8. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.22.9. Agentliyin cari fəaliyyətinə rəhbərlik və onu təmsil etmək;

4.22.10. Agentliyin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər vermək;

4.22.11. Agentliyin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil etmək, yoxlamaq və buna nəzarəti həyata keçirmək;

4.22.12. Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv etmək;

4.22.13. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq etmək;

4.22.14. Agentlik işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil etmək;

4.22.15. Bu Nizamnamədə müəyyən edilmiş hallar istisna olmaqla, Agentliyin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul etmək;

4.22.16. Agentliyin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət etmək;

4.22.17. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Agentliyin adından əməliyyatlar aparmaq, müqavilələr bağlamaq və onların yerinə yetirilməsini təmin etmək;

4.22.18. Agentliyin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaratmaq;

4.22.19. Agentliyin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görmək;

4.22.20. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin etmək;

4.22.21. Agentlikdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin etmək;

4.22.22. Şuranın səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

### 5. Agentliyin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. Agentliyin nizamnamə fondunun məbləği 285 405 (iki yüz səksən beş min dörd yüz beş) manatdır.

5.2. Agentliyin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Agentlik öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir, balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Agentlik qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri müəyyən edilmiş qaydada ödədikdən sonra Agentliyin, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. Agentliyin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Azərbaycan Respublikası Prezidentinin qərarı ilə dövlət büdcəsinə köçürülür.

5.6. Agentliyin məhsulları tənzimlənən qiymətlərə aid deyildir.

### 6. Agentliyin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Agentliyin fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada Agentliyin idarəetmə orqanları həyata keçirirlər.

6.2. Agentliyin fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

### 7. Agentlikdə uçot və hesabat

7.1. Agentlik "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Agentlik "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Agentlik idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Agentlik öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

### 8. Agentliyin ləğvi və yenidən təşkili

Agentliyin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# Xilaskarlıqdan qalibiyyətə yüksələn zəfər missiyası

**Fakt budur ki, Heydər Əliyev Azərbaycanı öz xilaskarlıq missiyası ilə daxili və xarici düşmənlərdən qorudu, xilas etdi. Onun siyasi varisi İlham Əliyev bu tarixi qələbə, zəfər müjdəsi ilə davam etdirdi**



"Sovet hakimiyyəti dağıldıqdan sonra müstəqilliyini bərpa edən Azərbaycanın üzləşdiyi çətinliklər, xaos ölkəmizin daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaratmışdı. Digər tərəfdən, ayrı-ayrı bölgələrdə separatçılıq və parçalanma meyillərinin baş qaldırması müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanı bir dövlət kimi varlığına son qoyulması riski ilə üz-üzə qoymuşdu. Artıq bu reallıq özünü daha çox göstərməyə başlaması ilə yanaşı, ölkədaxili siyasi hərc-mərcliklərin kəskinləşməsi dövlətçiliyimizin əsaslarını laxlatmağa başlamışdı. Belə ki, gözləri respublikamızda olan xarici dairələr öz maraqlarının təminatı yönündə məkrli planlarını işə salmaqla vəziyyətin daha da mürəkkəbləşməsinə səbəb olmaqda idilər".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri Məhərrəm Əliyevin "Xilaskarlıqdan qalibiyyətə yüksələn zəfər missiyası" sərlövhəli məqaləsində yer alıb. Məqaləni təqdim edirik.

Belə bir vəziyyətdə Qarabağ cəbhəsində baş verən hadisələr də arxa plana keçmiş, hətta ayrı-ayrı silahlı birləşmələr dövlətin təhlükəsizliyini, düşmənin işğalçılıq siyasətinin qarşısını almaları yerinə ya siyasi oyunların girovlarına çevrilir, ya da şəxsi maraqlarını düşünərək maddi gəlirlərini müharibə yolu ilə artırmaqla məşğul idilər.

Xalqa lider, sərkərdə lazım idi və məhz onun xilaskarlıq missiyasını icra etməsi nəticəsində Azərbaycan dövləti düşdüyü ağır hərbi, siyasi böhranlardan qurtula bilərdi. Bu şəxsiyyət isə, əlbəttə ki, Heydər Əlirza oğlu Əliyev idi.

### Xalq da yaxşı bilir və dərk edirdi ki, polad iradə, sarsılmaz qətiyyət, sonsuz əzm və müdriklik ölkəni dəhşətli nəticələrdən qoruya bilər

O da əbəs deyildi ki, məhz belə bir gərgin və böhranlı vəziyyətdə xalq öz doğru seçimini və qərarını verdi. Daha dəqiq desək, o zamanın zəruri çağırışı sosial sifariş idi və bu sifarişin təməlində dahi Heydər Əliyevin xilaskarlıq missiyası dayanırdı. Çünki xalq da yaxşı bilir və dərk edirdi ki, yalnız polad iradə, sarsılmaz qətiyyət, sonsuz əzm və müdriklik ölkəni dəhşətli nəticələrdən qoruya bilər. Parçalanmış xalqı birləşdirən, dünya azərbaycanlılarını bir araya gətirərək müstəqilliyimizi qoruyan, bunun davamı olaraq isə yalnız inkişaf və tərəqqi yolunu tutan dahi şəxsiyyət Heydər Əliyev artıq o zamandan uzaqgörən siyasətini müəyyənləşdirərək, ölkəmizi daxili və xarici düşmənlərdən xilas etdi.

Nəticədə siyasi-diplomatik, iqtisadi cəbhədə qazanılan hər bir uğurun təməlində gələcək Azərbaycanın qüdrət, inkişaf və zəfər simvolları müəyyənləşdirildi və bu faktor köklü şəkildə ölkəmizi dünya arenasına çıxara bildi. Çünki qarşıda daha böyük, nəhəng qalibiyyətlər və zəfərlərin dayanması heç kimdə şübhə doğurmurdu.

Əgər bu gün biz müstəqil, güclü və qüdrətli, qalib Azərbaycan haqqında bəhs ediriksə, fikirlərimizi bölüşürüksə, bu reallıqların hər birində Heydər Əliyev imzasını görmüş oluruq.

### Məhz bu şərəfli missiya keçmişimizi özümüzə qaytardı, bu günümüzün uğur reallığını sübuta yetirdi və sabahımızın növbəti qələbələrinin müjdəsini xalqımıza nəsib etdi

O da əbəs deyil ki, Azərbaycan xalqının Müzəffər Sərkərdəsi, Ali Baş Komandanı, Prezident İlham Əliyev bilavasitə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçı, varisi olaraq hər bir vətənsevər azərbaycanlının qəlbində özünəməxsus yerə sahibdir. Bu, bir faktdır ki, Heydər Əlirza oğlu Əliyev Azərbaycanı öz xilaskarlıq missiyası ilə daxili və xarici düşmənlərdən qorudu, xilas etdi. Onun siyasi varisi İlham Əliyev isə bu tarixi qələbə, zəfər müjdəsi ilə davam etdirdi. Məhz "Qarabağ Azərbaycandır!" tarixi kəlamı ilə!

Otuz il işğalçı Ermənistanın tapdağı altında qalan Qarabağ torpaqlarımız 44 günlük zəfər yürüşü nəticəsində işğaldan azad edildi. Bəli, "Xilaskarlıqdan qalibiyyətə!" Məhz bu şərəfli missiya keçmişimizi özümüzə qaytardı, bizi bir xalq, millət olaraq birləşdirdi, bu günümüzün uğur reallığını sübuta yetirdi və sabahımızın növbəti qələbələrinin müjdəsini xalqımıza nəsib etdi. Artıq onu da əminliklə vurğulaya bilərik ki, gələcək nəsillərimizin daha parlaq və qüdrətli bir dövlətdə yaşayacağına heç kim şübhə etməsin. Çünki bunu Müzəffər Ali Baş Komandanımız Şuşamızın azad olunduğu gün və sonrakı müraciətlərində dəfələrlə, qətiyyətlə vurğuladı.

### Ona olan inam və ümid özünü bütün cəhətlərdən doğrultdu - xalq öz Liderinin, Müzəffər Sərkərdəsinin ətrafındadır

Rəşadətli Ordumuzun Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edərək, onun ruhu qarşısında baş əyməsi və həmin an qəlbində keçirdiyi xoşbəxtlik və qürur hisslərini xalqımızla bölüşməsi, ata vəsiyyətini ləyaqət və şərəflə yerinə yetirməsini söyləməsi əsl xilaskar və qalib sərkərdəyə layiq anlar idi. Biz bu tarixin və qürurlu anların canlı şahidləri olaraq özümüzü ən xoşbəxt və ən qürurlu nəsil hesab edə bilərik.

Hələ 17 il əvvəl - xilaskarlıq missiyasından qələbə salnaməsinə keçilən dövrün yeni tarixi yazılmışdı. 2003-cü ildən böyük ümid və inamla xalqımızın arzusu və seçimi ilə Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyevin siması və siyasətində davam etdi. Olduqca məsuliyyətli və strateji hədəflərlə, məqsədyönlü konsepsiya və dövlətçilik quruluşu ilə başlanan uğurlu siyasət, Heydər Əliyev siyasi kursuna sadiqliklə bütün daxili və xarici siyasətin tam mərkəzində Azərbaycanın əbədi və əzəli torpaqlarının düşmən tapdağından azad olunması idi. "Xilaskarlıq salnaməmizin" müəllifləri Heydər Əliyev və İlham Əliyev - gələcək irsimiz və nəsillərimizə danışacağımız ən dəyərli uğur hekayəmizdir.

### Dünyanın bir sıra aparıcı dövlətləri Azərbaycanın Qarabağda apardığı hərbi strategiyanı, müharibə metodlarını öyrənir, qazanılan qələbənin mühüm meyarlarını hərbi ədəbiyyatlarına daxil edirlər

Nəhayət, 2020-ci il noyabrın 8-də "Qarabağ Azərbaycandır!" nidası qoyulmuş oldu. Riyakar və daim cinayətkar siyasəti ilə dünyada işğalçı imici formalaşdıran Ermənistan əbədi və əzəli torpaqlarımızı işğal edərək beynəlxalq hüququn prinsiplərini pozması ilə kifayətlənməyərək daha da azğınlaşması, qeyri-qanuni məskunlaşma, yeni ərazi iddiaları irəli sürərək mülki əhalimizə qarşı terror cinayətlər törətdilər. İllərlə yaratdıqları "güclü erməni ordusu" mifinə nəinki dünyanı, hətta özlərini belə inandırmağı bacarmışdılar. 1990-cı illərdə SSRİ ordusundan qalan silah-sursat, ermənipərəst qüvvələrin dəstəyi ilə öz işğalçı siyasətini həyata keçirərək ağır cinayət və soyqırımı aktları törətdilər. Münaqişənin təmas xəttindən uzaq məsafələrə doğru genişlənməsi Ermənistanın yeni ərazi iddialarının və işğal altında saxladıqları torpaqlarda əbədi məskunlaşmaq niyyətinin bariz nümunəsi idi. Ermənilərin ötən ilin iyulunda Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməsi, mülki əhaliyə qarşı cinayətkar təxribatların törədilməsi riyakar niyyət və məqsədi bütün dünyaya nümayiş etdirdi. Buna baxmayaraq, Azərbaycan dövləti səbir və dözüm nümayiş etdirdi və beynəlxalq hüquq və prinsiplərlə, danışıqlarda haqlı mübarizəmizi apardı, ancaq güclü nizami ordumuzun qurulması ilə ən müasir silah və döyüş texnikaları ilə təmin olunmuş Silahlı Qüvvələrimiz bütün riyakarlıq və cinayətlərin cavabını verərək qələbə qazandı. Əbəs deyil ki, artıq dünyanın bir sıra aparıcı dövlətləri Azərbaycanın Qarabağda apardığı hərbi strategiyanı, müharibə metodlarını öyrənir, qazanılan qələbənin mühüm meyarlarını hərbi ədəbiyyatlarına daxil edirlər.

Digər tərəfdən, Prezident İlham Əliyev "Azərbaycanın ərazi bütövlüyü heç zaman danışıqlar mövzusu olmayıb və olmayacaq" deyərək, bütün beynəlxalq təzyiqlərin qarşısında məğrur, qətiyyət və dözümlə dayanaraq səbir və iradə nümayiş etdirərək, xalqının ona olan inam və dəstəyinə arxalanaraq tarixi adını, Qalib Sərkərdə adını xalqımızın qəlbinə və tarixinə əbədi həkk etdirdi.

### 2021-ci ilin növbəti uğurlu və strateji nailiyyətlərlə yaddaqalan illərdən olacağına hər birimiz əminik

Artıq 2020-ci il Azərbaycan tarixinə Qələbə ili kimi daxil oldu. Müzəffər Ali Baş Komandanın müdrik və qətiyyətli siyasəti, məğrur və iradəli Azərbaycan Ordusunun əzmi, qanını, canını qurban verərək əbədiyyətə qovuşan şəhidlərimizin ruhu və qazilərimizin sağlamlığı bahasına tariximizə bəxş edilən şanlı Qələbə bütün dünya azərbaycanlılarını dəmir yumruq ətrafında sıx birləşdirdi və həmrəyliyimiz daha da gücləndi. "Qarabağ Azərbaycandır!" vurğulayan Prezident İlham Əliyev onu xəyallarımızdan tariximizin gerçəkliyinə çevirdi.

Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfəri zamanı erməni vəhşilik və vandalizmini şəxsən özünün təqdimatı ilə dünyaya çatdırması, qələbənin haqlı mübarizəmizin nəticəsində əldə olunduğunu bir daha sübut etdi. Tarixi, əbədi və əzəli torpaqlarımızda ermənilərin illərlə etdiyi vəhşiliklər, tarixi və mədəni abidələrimizin dağıdılması hər birimizi çox narahat edir, ancaq "Böyük Qayıdış" planı bütün yaralarımızı sağaldacağına inanırıq və əminik. Bərpa işlərinin başlanması bir daha sübut edir ki, Qarabağ öz tarixi gözəlliyinə qovuşacaq və bütün dünya uğurlu layihələrin icrasına şahidlik edəcək.

2021-ci ilin növbəti uğurlu və strateji nailiyyətlərlə yaddaqalan illərdən olacağına hər birimiz əminik. Yeni infrastruktur və yol layihələrinin icrası, nəzərdə tutulan uğurlu işlərin tez bir zamanda həyata keçiriləcəyinə zəmin yaradır. İşğaldan azad olunmuş ərazilərimizdə keçiriləcək çox mühüm və tarixi abidələrimizin yenidən bərpası, irsimizin, mədəniyyətimizin ən gözəl dövrə qədəm qoyması müjdəsini verir. Şəhərlərimizin tarixi adlarına qovuşması, tarixi, mədəni, dini irsimizin öz tarixi və haqlı sahibinə qovuşması bizi çox sevindirir. Qanı və canı ilə tariximizə şanlı qələbəni nəsib edən şəhidlərimiz və qazilərimizin ailələri daim diqqət və qayğı ilə təmin olunacaq. Şəhidlərimizin ruhu qarşısında baş əyirik, qazilərimizə sağlamlıq diləyirik. Torpaqlarımızın işğaldan azad olunması, tarixi qələbəmizin xəyallardan gerçəyə çevrilməsində onların misilsiz xidmətləri heç zaman unudulmayacaq.

Müzəffər Ali Baş Komandan İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birgə işğaldan azad olunmuş ərazilərə səfəri zamanı əsgərlərimizin coşqusu, Prezidentin dünya ictimaiyyətinə tarixi və strateji mesajları 44 günlük mübarizədə nümayiş etdirdiyi əzm, iradə və qətiyyətin davamı idi. Dünya ictimaiyyəti Azərbaycan Ordusu və xalqının coşqusunda sonsuz məhəbbətin, hədsiz inam və həyəcanının şahidi oldular. Səmimi foto və dialoqlarla yadda qalan səfər təəssüratlarını xalqımız heç zaman unutmayacaq.

### Azərbaycanımızın məğrur, vətənpərvər, cəsur oğullarını nəsillərimiz tanıdı

Qırx dörd günlük haqq savaşı adlarını tariximizə əbədi həkk etdirən qəhrəman şəhid və qaziləri tanıtdı. Azərbaycanımızın məğrur, vətənpərvər, cəsur oğullarını nəsillərimiz tanıdı və daim gələcək irsimizə tanıdacaq. Vətən uğrunda qanını, canını fəda edən şəhidlərimizin, sağlamlığını qurban verən qazilərimizin vətən borcu ödəndi. Hər qarış torpaqlarımızın azad olunmasına görə onlara borcluyuq və heç zaman unutmamalıyıq.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və tapşırığı ilə həyata keçirilən sosial dəstək və dayaq məqsədli yardım aksiyaları, şəhid və qazi ailələrinə xüsusi həssaslıq və qayğı ilə yanaşma xalqımız tərəfindən daim rəğbət və sevgi ilə qarşılanır. Bizlər isə inanırıq və əminik ki, Xilaskarlıq Missiyası xalqımızın həmrəylik və milli birlik ruhunda hər zaman uğurla davam edəcək və ölkəmiz daim qüdrətlənəcək, çünki bu missiyanın təməl prinsipi Qələbə və Zəfər gerçəkliyidir. Yaşasın Azərbaycan! Yaşasın bizə bu qələbəni yaşadan Müzəffər Ali Baş Komandanımız! Qarabağ Azərbaycandır!

# Azərbaycan və Rusiya prokurorluqları arasında əməkdaşlıq uğurla davam etdirilir





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, Baş Prokurorluq bir sıra ölkələrin prokurorluq və digər cinayət təqibi orqanları, eləcə də beynəlxalq təşkilatlarla işgüzar əlaqələr və dostluq münasibətlərinin qurulması sahəsində səmərəli fəaliyyətini davam etdirir.

AZƏRTAC xəbər verir ki, Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnovun dəvəti ilə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərliyi ilə Baş Prokurorluğun nümayəndə heyəti yanvarın 12-də Rusiya Prokurorluğunun yaranmasının 299 illiyinə həsr olunmuş tədbirlərdə iştirak məqsədilə Moskvaya səfər edib.

Səfər çərçivəsində Rusiyanın Baş prokuroru İqor Krasnov ilə keçirilmiş görüşdə ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, dövlət başçılarının birgə səyi və siyasi iradəsi sayəsində bu əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi xüsusilə qeyd olunub.

Görüşdə Baş prokuror Kamran Əliyev bildirib ki, ölkə rəhbərliyinin siyasi kursuna uyğun olaraq prokurorluq orqanlarında genişmiqyaslı islahatlar aparılmış, işin çevikliyinin və səmərəliliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən peşəkarların formalaşdırılması məqsədilə Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən qurulub, yeni idarələr yaradılmaqla ümumilikdə idarə və şöbələrin sayı 18-ə çatdırılıb.

Baş prokuror otuz ilə yaxın dövr ərzində Ermənistan tərəfindən işğal altında saxlanılan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuz tərəfindən azad edildiyini, ölkəmizin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq ərazi bütövlüyünü bərpa etdiyini bildirib.

Söhbət zamanı Azərbaycan və Rusiya prokurorluqları arasında imzalanmış Əməkdaşlıq haqqında 2019-cu il 24 iyun tarixli Sazişin icrası ilə əlaqədar 2021-2023-cü illəri əhatə edən Əməkdaşlıq Proqramı imzalanıb.

Tərəflər ölkələrimizin prokurorluqları arasındakı sıx əməkdaşlıq və dostluq münasibətlərinin bütün istiqamətlərdə bundan sonra da uğurla inkişaf edəcəyinə, habelə Əməkdaşlıq proqramının əlaqələrin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən mühüm sənəd olacağına və yeni perspektivlər üçün əlverişli zəmin yaradacağına əminliklərini ifadə ediblər.

Bundan başqa, görüşdə mütəşəkkil cinayətkarlığın müxtəlif təzahürlərinə, o cümlədən terrorçuluq, korrupsiya cinayətləri, insan alveri və narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında danışılıb, iki ölkə vətəndaşlarının hüquq və azadlıqlarının qorunması, cinayət işləri üzrə hüquqi yardım, ekstradisiya, təlim səfərləri, həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyət və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu da görüşdə iştirak edib.

Həmçinin səfər çərçivəsində Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycan, Rusiya və Ermənistan Baş prokurorlarının üçtərəfli görüşü keçirilib.

Görüşdə dövlət başçılarının 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatlarının müvafiq bəndlərinin icrası, həmçinin hüquqi əməkdaşlıq mexanizmləri müzakirə edilib.

# İlham Əliyevin növbəti siyasi-diplomatik qələbəsi

*Əvvəli 1-ci səh.*

Rusiya Prezidenti Vladimir Putinin təklifi ilə yanvarın 11-də Moskvada Azərbaycan və Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin iştirakı ilə keçirilən üçtərəfli görüşün də məqsədi noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatda göstərilmiş əsas nizamlama istiqamətləri üzrə növbəti addımların razılaşdırılması idi. Bütün bunlar isə regionda sülhün, təhlükəsizliyin və inkişafın təmin olunmasına xidmət edəcək tədbirlərin həyata keçirilməsini özündə ehtiva edir ki, bu da Azərbaycanın maraqlarına, Dağlıq Qarabağ və regional əməkdaşlığa dair siyasətinin məzumununa uyğundur.

### Nəqliyyat kommunikasiyalarının bərpasına başlanılır

Moskvada aparılan üçtərəfli danışıqlardan sonra Azərbaycan və Rusiya prezidentləri və Ermənistanın baş naziri bəyanat imzaladılar. Bu sənəd bir daha ona dəlalət etdi ki, Ermənistanın işğal siyasətindən əl çəkməkdən, regional əməkdaşlıq etməkdən başqa yolu yoxdur. Çünki bəyanat 2020-ci il 10 noyabr tarixli Bəyanatın 9-cu bəndinin regionda iqtisadi və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı hissəsinin reallaşdırılması ilə bağlıdır. Həmin bənd bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa olunmasını, Azərbaycanın qərb rayonları və Naxçıvan arasında nəqliyyat əlaqəsinin yaradılması məqsədidə yeni nəqliyyat kommunikasiyalarının inşasını nəzərdə tutur.

Bu məqsədilə Azərbaycanın və Ermənistanın baş nazirlərinin müavinlərinin, eləcə də Rusiya hökumətinin sədr müavininin birgə həmsədrliyi ilə üçtərəfli İşçi qrupu yaradılacaq. İşçi qrup bu il yanvarın 30-dək ilk iclasını keçirəcək. Bu iclasın nəticələrinə görə bəyanatın 9-cu bəndinin reallaşdırılmasından irəli gələn işlərin əsas istiqamətlərinin siyahısını formalaşdıracaq, prioritet qismində dəmir yolu və avtomobil yollarını müəyyən edəcək. Həmçinin razılaşma əsasında digər istiqamətlər müəyyən olunacaq.

İşçi qrupu 2021-ci il martın 1-dək Azərbaycan və Ermənistan ərazisindən həyata keçirilən beynəlxalq daşımaların, həmçinin Azərbaycan və Ermənistan tərəfindən həyata keçirilən və yerinə yetirilməsi zamanı bu ölkələrin ərazilərinin kəsişməsi tələb olunan daşımaların təşkili, yerinə yetirilməsi və təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan yeni nəqliyyat infrastrukturu obyektlərinin bərpasını və tikilməsini nəzərdə tutan tədbirlərin siyahısını və reallaşdırılması qrafikini yüksək səviyyədə təsdiqlənmək üçün təqdim edəcək.

Beləliklə, bu bəyanatla götürülən öhdəliklər Ermənistanı işğal siyasətindən əl çəkməyə məcbur edən növbəti mühüm siyasi-hüquqi razılaşmadır. Mətbuata bəyanatla çıxışında Prezident İlham Əliyev bildirdi ki, nəqliyyat kommunikasiyalarının bərpası regionun inkişafına böyük dinamizm gətirə, təhlükəsizliyi möhkəmlədə bilər: "Bu gün imzalanmış bəyanat bizim niyyətlərimizə dəlalət edir, ona görə ki, hərbi əməliyyatların dayandırılmasının yekunlarına dair bəyanatın bir bəndi nəqliyyat kommunikasiyalarının bərpasına aid idi. Bu sahə regionun inkişafına böyük dinamizm gətirə, təhlükəsizliyi möhkəmlədə bilər. Ona görə ki, nəqliyyat kommunikasiyalarının açılması Azərbaycan, Ermənistan, Rusiya xalqlarının, bizim qonşularımızın mənafelərinə cavab verir. Əminəm ki, qonşu ölkələr də bizim regionda nəqliyyat dəhlizlərinin və nəqliyyat arteriyalarının şaxələndirilmiş şəbəkəsinin yaradılmasına fəal qoşulacaqlar. Biz bundan sonra da qısa müddətdə səmərə verən və nəticəyə yönəlmiş fəaliyyət sahələrini tapmağa çalışmalıyıq".

### İlham ƏLİYEV: "Heç bir status haqqında söhbət gedə bilməz"

Bu gün Ermənistanda müxalifət bu bəyanata qarşı çıxış etsə də, baş nazir Nikol Paşinyanın başqa yolu da yox idi. Çünki Ermənistan müxalifətinin variantı əvvəldə qeyd edildiyi kimi, intihardan başqa bir şey deyil.

N.Paşinyanın mətbuata bəyanatla çıxışında toxunduğu məsələlərə gəldikdə Dağlıq Qarabağın statusu məsələsi artıq müzakirə mövzusu deyil. Ona görə ki, müharibənin qalibi olan Azərbaycan Dağlıq Qarabağda ikinci erməni dövlətinin yaradılmasın xülyasına birdəfəlik son qoydu. "Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz. Vahid Azərbaycan dövləti var. Çoxmillətli, çoxkonfessiyalı, mütərəqqi Azərbaycan dövləti var. Bütün Azərbaycan vətəndaşları, bütün xalqların, dinlərin nümayəndələri normal yaşayırlar, mehribanlıq, sülh şəraitində yaşayırlar. Erməni xalqı da belə yaşayacaq", - deyə Prezident İlham Əliyev Füzuli və Cəbrayıl rayonlarına səfəri zamanı deyib.

Ermənistanın baş nazirinin iddialarından biri 10 noyabr Bəyanatının 8-ci bəndinin yerinə yetirilməməsi barədə oldu. Məlum olduğu kimi, bir müddət əvvəl Azərbaycan Ermənistan arasında əsirlərin mübadiləsi həyata keçirildi. Noyabrın 10-na qədər Azərbaycan Ordusunun əsir götürdüyü bütün erməni əsgərlər ölkələrinə qaytarıldı.

Noyabr ayının 10-dan sonra işğaldan azad edilmiş Azərbaycan ərazilərində əsir götürülən erməni silahlıları isə əsgər sayıla bilməz. Məlum olduğu kimi, noyabr və dekabr aylarında işğaldan azad edilmiş Azərbaycan ərazilərində erməni silahlıları əsgərlərimizə hücumlar təşkil ediblər. Əsgərlərimizin sayıqlığı və peşəşəkarlığı nəticəsində bu hücumların qarşısı dərhal alınıb və silahlı ermənilər əsir götürülüb. Prezident İlham Əliyevin 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirədə dediyi kimi onlar terrorçudur, diversantdır: "Onları əsir götürmüşük. Amma onlar hərbi əsir sayıla bilməz, çünki müharibə qurtarıb. Onlar terrorçudur, diversantdır. Onlar Xocavənd rayonuna Ermənistandan, Ermənistanın Şirak vilayətindən noyabrın 26-dan sonra gəlmişlər. Bunu hər kəs bilsin. Nə üçün gəlmişlər? Kim onları göndərib? Müharibə ayın 10-da qurtarıb, Bəyanat imzalanıb. Kim göndərir onları oraya? Əgər Ermənistan rəhbərliyi bu qanunsuz silahlı birləşmələrə nəzarət edə bilmirsə, bu, onların problemidir. Ona görə burada heç kim bizi ittiham edə bilməz".

N.Paşinyanın mətbuata bəyanatında xüsusilə bununla bağlı toxunduğu məsələlərin heç bir hüquqi əsası yox idi. Ermənistan baş nazirinin təkidlə qeyd etdiyi məqamlar müxalifətin onun əleyhinə iddialarından qaynaqlanırdı. Lakin heç bir əsası olmadığından Moskva görüşünün gündəliyinə bu cür məsələlərin müzakirəsi salınmamışdı və təsadüfi deyil ki, Vladimir Putin də bu barədə heç bir fikir işlətmədi. Bu baxımdan Rusiya paytaxtında keçirilən üçtərəfli görüş, imzalanan bəyanat Azərbaycanın milli maraqlarına tam cavab verən növbəti siyasi hadisə oldu.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan koronavirusa qarşı ən səmərəli tədbirlər görən ölkələrdəndir

*Əvvəli 1-ci səh.*

Bir sıra ölkələri "peyvənd millətçiliyi"nə görə tənqid edən baş direktor bəzi zəngin dövlətlərin indiyədək istehsal olunan peyvənd dozalarının, demək olar ki, hamısını aldıqlarını, orta və yoxsul ölkələrdə isə buna görə vaksinasiya kampaniyalarının başlamadığını deyib. Həmçinin qeyd edib ki, bir sıra ölkələrdə "BioNTech" şirkətinin peyvəndi kimi həssas peyvənd maddələrinin saxlanması üçün müvafiq soyuducu sistemlərin olmaması əlavə logistik çətinliklər yaradır.

T.Qebreyesusun sözlərinə görə, hazırda ÜST ekspertləri Çində peyvənd istehsalçıları olan "Sinovac" və "Sinopharm" şirkətlərini onların peyvənd maddələrinin lisenziyalaşdırılması üçün beynəlxalq standartlara cavab verməlləri istiqamətində dəstəkləyirlər. Eyni zamanda ÜST "AstraZeneca" şirkətinin peyvəndinin təhlükəsizlik və effektivliyi ilə bağlı məlumatların təqdim olunmasını gözləyir. Bütün bu işlər tamamlandıqdan və ÜST-ün standartları ödənildikdən sonra dünya bazarlarında koronavirusa qarşı tətbiq olunacaq peyvəndlərin sayı artacaq.

### Respublikamıza 4 milyon doza vaksin gətiriləcək

Ölkəmizdə də peyvəndləmə prosesinə hazırlıq işləri görülür və ən yaxın vaxtlarda prosesə start veriləcək. Vaksinlərin alınıb gətirilməsi ilə əlaqədar aparılan bütün danışıqlar müsbət nəticələnib və yanvarın axırlarına 4 milyon doza vaksinin respublikamıza gətiriləcəyi gözlənilir. Əhalinin vaksinasiyasının fevraldan gec olmayaraq başlanılacağı nəzərdə tutulub.

Azərbaycanda aparılacaq vaksinasiyanın təşkili və əlavə təsirlərinin idarə edilməsi ilə əlaqədar Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) tərəfindən təlimlər keçirilir. Ölkəmizdə vaksinasiyanın aparılacağı 150 məntəqədə xəstənin qeydiyyatı, şikayətlərin qəbulu, qızdırmanın ölçülməsi, kompüterdə və jurnalda qeydiyyatın aparılma qaydası barədə məlumat veriləcək.

Bütün dünyada olduğu kimi, Azərbaycanda da ilk növbədə, risk qrupuna daxil olan insanlar peyvənd olunacaq. Vaksinasiyanın dövlət hesabına və könüllülük prinsipi əsasında aparılması nəzərdə tutulur.

Hazırda Azərbaycanda COVID-19 virusuna qarşı hərtərəfli mübarizə qətiyyətlə davam etdirilir. Sevindiricidir ki, koronavirusun geniş yayılmasının qarşısının alınması istiqamətində görülən ardıcıl tədbirlər səmərəli bəhrəsini verir. Respublikamızda görülən kompleks tədbirlər sayəsində pandemiyanın fəsadlarını minimum həddə saxlamaq mümkün olub. Artıq bir neçə həftədir koronavirusa yoluxma sayında müsbət tendensiya yaranıb. Xəstəlikdən sağalanların sayı gündəlik yoluxanların sayını üstələyib. İnfeksiyaya gündəlik yoluxma halları da xeyli aşağı düşüb. Bu da xəstəxanalardakı aktiv xəstə saylarının aşağı düşməsi və səhiyyənin yükünün nisbətən azalması deməkdir.

### Vaksinasiya əvvəlki həyata qayıtmaq imkanımızı sürətləndirəcək

Pandemiyanın ilk günlərindən hazırkı dövrə qədər dövlət tərəfindən bütün lazımi addımlar atılıb. Məktəblərin vaxtında bağlanması, hələ virusun yeni yayıldığı vaxtlarda təmirə ehtiyacı olan xəstəxanaların təmir olunması, qısa müddət ərzində yeni modul tipli xəstəxanaların tikilməsi və istifadəyə verilməsi, pandemiya dövründə sahibkarlara, eləcə də işsiz vətəndaşlara maddi yardımların edilməsi, koronavirusla mübarizəyə büdcədən əlavə vəsaitlərin ayrılması dövlətin vətəndaşına göstərdiyi diqqət və qayğısının nəticəsidir. Prezident İlham Əliyevin bu məsələlərə şəxsən nəzarət etməsi isə onun xalqımızın sağlamlığına yüksək diqqətinin təcəssümüdür.

Dövlət tərəfindən COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması ilə əlaqədar görülən bütün işlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanın hər bir vətəndaşının sağlamlığının qorunması məqsədini daşıyır. Dövlət üçün ən prioritet məsələ vətəndaşlarının koronavirus infeksiyasından qorunmasıdır. Qəbul edilən bütün qərarların arxasında məhz əhalinin sağlamlığı, rifahı, təhlükəsizliyinin təmini dayanır.

Ölkəmiz qlobal təhlükənin öz əhalisinə təsirini mümkün qədər minimuma endirmək üçün ən effektli tədbirlər həyata keçirir. Peyvəndlənmə də bu səmərəli tədbirlər sırasında yer alacaq. Azərbaycanda yaxın vaxtlarda başlanacaq vaksinasiya prosesi tezliklə əvvəlki həyata qayıtmaq imkanını sürətləndirəcək.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## COVID-19-dan 1276 nəfər sağalıb, 519 nəfər isə yoluxub




Azərbaycan Respublikasında koronavirus infeksiyasından 1276 nəfər müalicə olunaraq sağalıb, 519 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 15 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 225 min 346 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 210 min 798 nəfər müalicə olunaraq sağalıb, 2941 nəfər vəfat edib. Aktiv xəstə sayı 11607 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 279 min 907 test aparılıb. Dünənki test sayı isə 7898-dir.

## Şəxsi heyətin təminatı və xidmətin təşkili ilə bağlı tədbirlər davam etdirilir

İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Ordusunun bölmələrinin şəxsi heyətinin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində fəaliyyətlər davam etdirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həmin bölgələrdə, eləcə də yüksək dağlıq ərazilərdəki mövqelərdə yerləşən bölmələrdə günün nizam qaydalarına uyğun xidmət aparılır və döyüş növbətçiliyi təşkil olunur.

## Daha bir qazi yüksək texnologiyalı protezlə təmin edilir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Zəfərimizin qəhrəmanlarından biri olan, Vətən müharibəsində ağır yaralanaraq sol ayağını itirmiş Abbas Mədəd oğlu Yusifovun da yüksək texnologiyalı protezlə təmin edilməsi üçün işlərə başlanılıb. Prezident İlham Əliyevin sərəncamı ilə Yusifov Abbas Mədəd oğlu 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində Vətən müharibəsi qazisinin ilkin müayinəsi aparılıb. Ona protezləşməyə hazırlanması üçün lazımi təlimatlar verilib.

7-10 gün ərzində protezləşməyə tam hazır olandan sonra Abbasdan ölçülər götürülərək yüksək texnologiyalı protezlə təmin ediləcək.

> **“Vətənpərvərlik nədir? Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik! Vətənpərvər gənclər yetişdirilməsi təkcə təhsil müəssisələrinin işi ilə bitmir. İlkin olaraq ailədən başlayan bu tərbiyəvi iş təhsil müəssisələrində davam etdirilir, bütün cəmiyyətin, onun hər bir üzvünün əməlindəki müsbət nümunələrlə yetkinləşir”**
>
> *Heydər ƏLİYEV*

# Vətənpərvərlik milli dəyər kimi: *reallıqlar və perspektivlər*

Azərbaycan xalqı çoxəsrlik tarixinin şərəfli mərhələsini yaşayır, bütün dünya azərbaycanlıları təsvirəgəlməz qürur və sevinc hissləri keçirir. Azərbaycan xalqı Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Milli Ordumuzun 27 sentyabr 2020-ci il tarixdən başlanan əks-hücum əməliyyatları nəticəsində 30 ilə yaxın idi ki, mənfur qonşumuz Ermənistanın işğal altında saxladığı Qarabağı azad etməklə milli cağdaş tariximizə şanlı səhifə yazdı. Çağdaş tariximizə 44 günlük Vətən müharibəsi kimi daxil olan bu hərbi əməliyyat nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyü təmin edildi.

Hər bir ölkənin həyatında mürəkkəb, böhran vaxtı, düşmənlə savaşda hamını birləşdirən, bütün səylərin mahiyyətini təzahür edən çağırışın çox böyük, əvəzedilməz əhəmiyyəti var.

Ali Baş Komandan bütün xalqı səfərbər etdi, mübarizəyə qaldırdı, dəqiq məqsədləri göstərdi, hər bir azərbaycanlını Qarabağ uğrunda mübarizəyə istiqamətləndirdi.

“Biz qalib gələcəyik, bizim işimiz haqq işidir”, - deyə Ali Baş Komandan qeyd edirdi. Bu, sadə sözlər deyildi, bu, düşüncə tərzidir, bu, həqiqi vətənpərvərlikdir. Ali Baş Komandan Birinci Qarabağ müharibəsindən sonra ruh yüksəkliyini itirənlərə nikbinliklə inam qaytarırdı. Bu çağırışın ətrafında müxtəlif fikirli insanlar, hərbçilər, mülki vətəndaşlar yaşından və mənşəyindən asılı olmayaraq birləşdi.

Xalq ən yüksək vətənpərvərlik məqsədi naminə vətən torpaqlarının azad edilməsinə qalxdı. Bizim qələbəmizin olacağını sanki cəbhəyə gedən gənclərimiz özlərində hiss edir, duyurdular.

Ali Baş Komandanın döyüş meydanlarındakı qələbələrlə bağlı xalqa hər bir müraciəti milləti daha da sıx birləşdirdi. Bu müharibə əsl vətənpərvərlik meydanına çevrildi. Ölkəmizin sosial-iqtisadi cəhətdən davamlı və dinamik inkişafı, regionda aparıcı dövlətə çevrilməsi, dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Vətənimizin tərəqqisi, dövlətimizin beynəlxalq aləmdə nüfuzunun durmadan yüksəldilməsi, 30 ilə yaxın müddətdə işğal altında qalan doğma Qarabağın azad olunması istiqamətində möhtəşəm fəaliyyətləri hər bir vətəndaşımız, yetişməkdə olan hər bir gəncimiz üçün böyük vətənpərvərlik nümunəsi, vətənpərvərlik məktəbidir. Ali Baş Komandan, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad olunmuş Qarabağ rayonlarına səfərləri, möhtəşəm Xudafərin körpüsü üzərində, Qarabağ şəhərlərində müqəddəs üçrəngli Azərbaycan bayrağı önündə diz çökərək onu öpüb yüksəkliyə qaldırması, eləcə də Ağdam şəhərində Cümə məscidində hər ikisinin ayaqqabılarını çıxararaq Allah evinə daxil olmaları, Prezidentin Kəbədən gətirdiyi “Qurani-Kərim”i məscidə bağışlaması hər bir azərbaycanlının iftixar etdiyi əsl vətəndaşlıq, əsl vətənpərvərlik örnəyidir.

Bu müharibənin milli dövlətçilik tariximizdəki müstəsna rolu nəzərə alınaraq ölkə Prezidentinin müvafiq sərəncamları ilə müharibənin başlandığı 27 sentyabrın Anım Günü, müharibənin gedişində dönüş nöqtəsi sayılan Şuşanın azad olunduğu 8 noyabrın - Zəfər Günü kimi hər il təntənəli şəkildə qeyd olunması qərara alındı.

Bu tarixi Zəfər eyni zamanda Azərbaycan xalqının, xüsusən Azərbaycan gəncliyinin milli vətənpərvərlik ruhunun yüksək olduğunu, millətimizin Vətən, dövlət, dövlətçilik, milli bayraq sevgisini, dövlət başçısı və xalq birliyini parlaq şəkildə nümayiş etdirdi.

Vətən uğrunda döyüşmək, Vətəni sevmək, Vətəni qorumaq gənclərin əsas vəzifəsi idi. Vətənpərvərlik fəlsəfəsi hər bir Azərbaycan vətəndaşının, hər bir Azərbaycan əsgərinin, Azərbaycanın hər bir uşaq və gəncinin simasında özünün ifadəsini tapdı, cəmiyyət həyatında vətənpərvərlik hissi və duyğularının rolunun xüsusilə təhsil sistemində, təhsilin məzmununda vətənpərvərlik tərbiyəsinin önəminin daha da yüksəldilməsini aktuallaşdırdı. Çünki Vətən hər birimizin müqəddəs səcdəgahı, pənah yeridir. Dünyada ən böyük qəhrəmanlıq məhz Vətən naminə edilib. Hər şeydən pay ola bilər, amma Vətəndən pay olmaz.

Vətəni sevmək, vətəni qorumağın necə böyük əhəmiyyət kəsb etdiyi bədii ədəbiyyatımızda da öz əksini tapıb. Buna ən bariz nümunələrdən biri görkəmli yazıçı-alim Mir Cəlal Paşayevin “Bir gəncin manifesti” romanıdı. “Bir gəncin manifesti” əsərini oxuyarkən görürük ki, Baharın anası Sona xanım gözyaşı içərisində üzülür. Balası Bahar 3 gündür ki, aclıq içindədir. Çarəsiz Sona xanımın yeganə ümidi göydə Allah, yerdə evində qalan sonuncu dəyərli əşya, ana yadigarı “Yusif-Züleyxa” xalçasıdır. Xalçanı yerə salmaq ölüm, satmaq isə Baharın yaşaması deməkdir. Əlacsız ana xalçanı bazara aparır. Əcnəbi şəxsin gözü dərhal “Yusif-Züleyxa” xalçasını və onun nəfis tarixi naxışlarını tutur. “Alıram bu xalçanı, qiymətini de”. Əvvəl 30 qızıl, sonra 50 qızıl təklif etdi. “Satmıram” dedi Sona. Bu da yüz qızıl, yüzcə qızıl, keçib bizimki... “Nə qızıla satıram, nə də ingilisə!” Sona xalçanı çəkib aradan yığdı və pəhləvan kimi qoltuğuna vurdu: “Satmıram” dedi. Yüzlərlə vətəndaşın sevincli, alqışlı baxışları o namuslu, qeyrətli ananı yola salırdı.

“İtə ataram, yada satmaram. Ölüm bu alış-verişdən qat-qat şərəfli və vacibdir”. Bu sətiraltı tarixi fəlsəfə heç vaxt qulaqlardan, dillərdən silinməyən sözlərdi, səslərdi.

Romanda Sonanın simasında gerçəkləşən mübarizəyə “İtə ataram, yada satmaram”la bütün xalq, millət qoşulur. “Yusif-Züleyxa” xalçasını ingilisə satmaqdan qəti imtina edən Sonaya bütün xalq arxa durur. Onun qətiyyətli hərəkəti, “itə ataram, yada satmaram” qənaəti xalqın birliyindən, mübarizə amalından, işğalçılara nifrət hissindən, milli varlığa sonsuz sevgisindən güc alır. Mir Cəlal xalqın nümayiş etdirdiyi bu milli həmrəyliyi, yenilməz iradəni sevə-sevə tərənnüm edir.

Deyilənləri nəzərə alaraq, bu yazıda vətənpərvərlik anlayışının konseptual aspektləri, milli tərbiyənin məzmununda vətənpərvərlik tərbiyəsinin yeri, azərbaycançılıq milli məfkurəsi ilə vətənçilik ideyasının qarşılıqlı əlaqələri, gənclər siyasəti, milli tərbiyə konsepsiyası və tərbiyənin inkişafı strategiyasında uşaq və gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsi istiqamətində qarşıda duran vəzifələrə dair fikir və düşüncələrimizi, perspektiv inkişaf üzrə təklifləri göstərmək istərdik.

Qeyd edilməlidir ki, ideya müəllifi Ulu Öndər Heydər Əliyev olan milli təhsil quruculuğu sahəsində müstəqil Azərbaycanda bir sıra kardinal islahatlar aparılmış, təhsilin məzmununun milli dövlətçilik prinsipləri əsasında, azərbaycançılıq ideologiyasına uyğun olaraq qurulmasında, təhsilin mühüm komponenti olan milli tərbiyə məsələlərinin təhsilin məzmununda əks olunmasında əhəmiyyətli uğurlar qazanılmışdır.

Ulu Öndər Heydər Əliyev ilk dəfə olaraq elmi uzaqgörənliklə milli tərbiyənin məzmununa gənc nəslin milli vətənpərvərlik anlayışını da daxil etmiş və onun məzmununu yuxarıdakı epiqrafda verildiyi kimi müəyyənləşdirmişdir. Bu dahi insanın irsində Vətən sevgisi, Azərbaycan sevgisi - azərbaycançılıq hissi, xalq, millət sevgisi, dil və din sevgisi, milli mədəniyyət və mənəviyyat sevgisi xüsusi yer tutur. O, bunları hər bir azərbaycanlı uşaq və gənc üçün mənəvi təməl kimi təqdim edir. Elə buradan da milli tərbiyə işinin məzmununda uşaq və gənclərdə Vətənə - Azərbaycana, millətə, xalqa, dilə, dinə, bayrağa, milli-mənəvi dəyərlərə hörmət və ehtiram hisslərinin formalaşdırılması zərurəti meydana çıxır.

Heydər Əliyevin milli tərbiyədə hər bir uşaq və gəncdə azərbaycançılıq hisslərinin formalaşdırılmasının zəruriliyi haqda konseptual fikri milli tərbiyə konsepsiyasının və strategiyasının prioritetlərindən biridir. Bu hisslər onun dediyi kimi, Azərbaycan sevgisində, ana vətənə bağlılıqda təzahür edir: “Azərbaycanı sevmək - azərbaycançılıq hissiyatını özündə cəm etmək deməkdir”.

Deyilənlər bir daha sübut edir ki, vətənpərvərlik ideyası Heydər Əliyevin milli tərbiyənin məzmunu konsepsiyasında ən aparıcı komponentlərdən biri kimi nəzərdə tutulur.

Çox əlamətdar haldır ki, XXI əsr Azərbaycan təhsilinin “Yol xəritəsi” hesab olunan, Prezident İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq olunan “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyası”nın əsas strateji istiqamətlərindən biri olan təhsilin məzmunca yeniləşdirilməsində milli tərbiyə işinin təşkili məsələləri də əsas hədəflərdən biri kimi ön plana çəkilmişdir. Ötən müddətdə ümumi təhsilin məzmununda milli tərbiyə məsələləri, xüsusilə vətənpərvərlik tərbiyəsi, azərbaycançılıq ideologiyası və onun komponentləri ilə bağlı tərbiyə məsələləri ümumi təhsil üzrə humanitar profilli dərsliklərdə geniş şəkildə əks olunmuş, məktəbəqədər, ümumi təhsil və məktəbdənkənar təhsil müəssisələrində tərbiyə işinin təşkili ilə bağlı çoxsaylı layihələr reallaşdırılmışdır.

Hazırda qloballaşan dünyada ölkəmizin qarşısında duran prioritet hədəf - XXI əsrin çağırışlarına cavab verən bilik və bacarıqlara malik olan, soykökünə bağlı, ənənəvi milli-mənəvi dəyərləri qoruyub saxlayan və bölüşən, vətənin dinc quruculuğu və müdafiəsinə hazır olan, müasir və kreativ düşüncəli, innovasiyalardan baş açan yeni nəslin formalaşdırılmasına nail olmaqdan ibarətdir. Əslində bu hədəflər müasir Azərbaycan təhsilinin və milli tərbiyənin qarşısında duran əsas prioritetlər və strateji istiqamətlərdir.

Bu strateji hədəfə çatmağın əsas alət və vasitələrindən biri uşaq və gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə işinin səmərəli təşkilidir. Tərbiyənin strateji istiqamətləri müasir Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyev tərəfindən lakonik şəkildə bu cür ifadə edilmişdir: “Məktəb gənc şəxsiyyətin bir vətəndaş kimi təşəkkülündə, gənclərin vətənpərvərlik tərbiyəsində böyük rol oynayır. Hər bir gənc vətəndaş öz ölkəsinin alovlu vətənpərvəri olmalıdır”.



Bir məqamı da xüsusi vurğulamaq lazımdır ki, ideya müəllifi və banisi Heydər Əliyev olan azərbaycançılıq milli məfkurəsi ölkəmizin dövlətçilik ideologiyasına çevrilməklə hər bir vətəndaşın həyat yolunu, bu günümüzə və gələcəyə baxışlarını müəyyənləşdirmişdir. Bu milli ideologiyanın əsasını isə Vətənə məhəbbət aşılayan vətənçilik ideyası, milli mənsubiyyətlə fəxarət keçirməyi özündə ehtiva edən milliyyətçilik, milli-mənəvi dəyərlər, dövlətə və dövlətçiliyə sədaqət, milli və ümumbəşəri dəyərlərə münasibətdə dözümlülük və tolerantlıq, dövlət rəmzlərinə hörmət və ehtiram duyğuları təşkil edir. Məhz azərbaycançılıq milli ideologiyasından irəli gələn vətənpərvərlik ideyaları hər bir təhsil müəssisəsinin uşaq və gənclərlə aparılan tərbiyə işində başlıca yer tutmalıdır. Təhsil müəssisələrində təhsil alan uşaq və gənclər bilik, savad və bacarıq, eləcə də dünyagörüşü və intellektual potensial baxımından fərqlənə bilər. Ancaq bu amillərdən asılı olmayaraq, hər bir uşaq və gəncin vətənpərvərlik məfkurəsi zəminində tərbiyə alması birmənalı qəbul edilməlidir.

İnkarolunmaz həqiqətdir ki, heç kəs sadəcə nəsihət və dərslikdən, hər hansı kitabdan oxumaq yolu ilə vətənpərvər olmur. Bu prosesdə söz və əməl birliyi, şəxsi nümunə əsas təməl şərtlərdən, vacib amillərdən sayılır.

Bu bir həqiqətdir ki, bu gün hər bir Azərbaycan məktəbində tədris olunan doğma vətənimizin ayrılmaz parçası olan Qarabağın işğaldan azad olunması uğrunda döyüşlərdə şəhid və ya qazi olmuş qəhrəman oğullarımızım misilsiz rəşadət nümunələri yetişməkdə olan gənclərimiz üçün böyük vətənpərvərlik məktəbidir. Bir sıra məktəblərimiz döyüşlərdə həlak olmuş şəhidlərimizin adını daşıyır. Bu nümunələr şagirdlərin vətənpərvərlik tərbiyəsində misilsiz rol oynayır.

Təhsil müəssisələrində vətənpərvərliklə bağlı aparılan sistemli işlərdə uşaq və gənclərin Azərbaycan Respublikasının Dövlət rəmzlərinə hörmət və məhəbbət ruhunda tərbiyəsi mühüm yer tutur. Bu gün məktəblərimizdə elə bir şagird tapılmaz ki, o, ölkəmizin Dövlət himnini əzbər bilməsin və oxumağı bacarmasın. Elə bir məktəbli, elə bir vətəndaş yoxdur ki, Dövlət bayrağının mahiyyətini, rənglərdə simvollaşan mənaları bilməmiş olsun.

Hər bir Azərbaycan vətəndaşı yaxşı bilir ki, Dövlət bayrağı millətin, müstəqil dövlətin müqəddəs rəmzi, xalqın mənəvi pasportu, milli mənliyi və qürur mənbəyidir

Ötən il sentyabrın 27-dən Azərbaycan Ordusu tərəfindən doğma Qarabağda aparılan əks-hücum əməliyyatları dövründə vətəndaşlarımızda bayraq sevgisi, işğaldan azad olunan Vətən torpaqlarında müqəddəs üçrəngli bayrağımızın qaldırılması halları əsl vətənpərvərlik nümunəsi kimi qəlbimizi fərəh hissi ilə doldurur. Nə xoşbəxtik ki, 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanda üçrəngli milli bayrağımıza, həmçinin qardaş Türkiyənin Dövlət bayrağına ümummilli sevginin şahidi olduq. Ölkənin işğaldan azad olunan yaşayış məntəqələri haqqda Ali Baş Komandanın xalqa müraciəti zamanı verdiyi müjdələri eşidən vətəndaşlarımız əllərində bayraqlar yürüşlərə çıxdılar. Şəhər və kəndlərimiz üçrəngli bayraqlarla bəzədildi.

İftixar etməli haldır ki, xalqımızda bayrağa sevginin, məhəbbətin formalaşmasında ölkənin hər yerində, Dövlət bayrağı meydanlarının yaradılması mühüm rol oynamış, vətəndaşlarımızda vətənpərvərlik duyğularının formalaşmasına güclü təkan vermişdir.

Hər il təhsil işçilərinin, məktəblilərin və tələbələrin iştirakı ilə 9 Noyabr - Dövlət Bayrağı Günündə Bakıda və regionlarda keçirilən “Bayraq yürüşləri” təhsilalanların vətənpərvərlik ruhunda tərbiyəsinə, milli qürur mənbəyi olan bayrağımıza hörmət və ehtiramın formalaşmasına öz töhfələrini verir.

Müqəddəs üçrəngli bayrağımızda simvollaşan “türkləşmək, müasirləşmək, islamlaşmaq” üçlü düsturunun müəllifi olan Azərbaycanın böyük fikir adamı Əli bəy Hüseynzadə eyni zamanda Vətənimizdə islam hümmətçiliyindən türk milliyyətçiliyinə keçid fəlsəfəsinin də rəhbəri kimi milli tariximizə öz əbədi imzasını qoymuş tarixi şəxsiyyətlərdən biridir.

Çox əlamətdar haldır ki, Azərbaycan Respublikasının Dövlət bayrağındakı rənglərin daşıdığı məna və onların yuxarıdan aşağı yerləşmə ardıcıllığı ilə bu gün təhsil sistemimizin qarşısında duran əsas hədəflərin prioritetliyi arasında müəyyən bir paralelliyi müşahidə etmək olar: təhsil sisteminin yetişdirdiyi vətəndaş ilk növbədə öz köklərinə bağlı və milli mənsubiyyəti ilə fəxr edən vətənpərvər (türkçülük - mavi rəng); dərin biliyə malik olan müasir baxışlı, yaradıcı düşüncəli və mütərəqqi insan (müasirlik - qırmızı rəng), öz xalqının adət-ənənələrinə və mənəvi dəyərlərinə sadiq bir şəxs (islamçılıq - yaşıl rəng) olmalıdır.

Deməli, Dövlət bayrağımız hər bir təhsilalan üçün milli iftixar və qürur mənbəyi olmaqla yanaşı, həm də vətənpərvərlik simvoludur.

Təhsil işində təhsilalanların vətənpərvərlik ruhunda tərbiyəsində, Azərbaycan gəncliyinin əsl vətənpərvər vətəndaş kimi yetişməsində dövlətimizin, dövlət başçısının apardığı müdrik gənclər siyasəti müstəsna rol oynayır. Bu siyasətin banisi isə Ulu Öndər Heydər Əliyevdir. Ulu Öndərin gənclər siyasətinin amalı xalqımızın əsrlərboyu yaratdığı və qoruyub inkişaf etdirdiyi milli-mənəvi dəyərlər əsasında, müstəqil dövlətçilik, milli azadlıq və onların qorunması, vətənçilik - azərbaycançılığın inkişaf etdirilməsi uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. İftixar etməli haldır ki, milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişafı, hüquqi demokratik cəmiyyət quruculuğu, siyasi, iqtisadi və hüquqi islahatlarla bağlı bu dahi insanın işıqlı ideyaları müstəqil Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edir. Heydər Əliyev gəncləri müstəqil Azərbaycanın gələcəyi hesab edirdi.

Ulu Öndər müstəqil Azərbaycanın gələcəyi hesab etdiyi gənclərin təhsilinə hər zaman qayğı göstərmişdir. Hələ ötən əsrin 70-80-ci illərində Azərbaycana rəhbərliyi dövründə Heydər Əliyevin böyük diqqət və qayğısı ilə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərində yerləşən 170-dən çox məşhur ali məktəbdə respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən 250-dən çox nadir ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin mükəmməl ali təhsil almasına şərait yaradılmışdır. Ulu Öndər həmin gəncləri “Azərbaycanın milli sərvəti” adlandırırdı.

İftixar etməli haldır ki, Ulu Öndərin gənclər siyasəti sahəsində cahanşümul əməlləri bu gün möhtərəm Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Dövlət başçısının təsdiq etdiyi “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində ötən müddətdə 3500-dən artıq Azərbaycan gənci dövlət hesabına dünyanın ən inkişaf etmiş ölkələrinin universitetlərində ali təhsil almış, böyük əksəriyyəti Vətənə dönmüşdür.

Prezident İlham Əliyevin təhsil və gənclər siyasətinin əsasında “Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik” kimi konseptual baxışı durur. Dövlət başçısının son illərdə təsdiq etdiyi Azərbaycan gəncliyi ilə bağlı bir neçə dövlət proqramı da məhz bu konseptual yanaşmanın reallaşmasına xidmət edir. Bu bir həqiqətdir ki, dövlət başçısının böyük uğurla gerçəkləşdirdiyi gənclər siyasəti gənclər arasında vətənpərvərlik ruhunun yüksəlməsinə, gənclərin vətənçilik, dövlətçilik, azərbaycançılıq ideyaları əsasında əsl vətənpərvər kimi yetişmələrinə imkan yaratmışdır. Son illərdə dövlət idarəçiliyinə gənclərin daha aktiv şəkildə irəli çəkilməsi də onlarda dövlətçiliyə sədaqətlə xidmət etmək, müasir dünyanın qlobal çağırışlarına cavab verən rəqabətqabiliyyətli peşəkar şəxsiyyət kimi yetişmələrinə geniş imkanlar yaradır. Nəticədə bu proseslər bütövlükdə yetişməkdə olan gənc nəsildə vətənpərvərlik ruhunun formalaşmasına yardım edir.

Xüsusi qeyd edilməlidir ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən Azərbaycan Respublikasında 2020-ci ilin “Könüllülər ili” elan edilməsi ölkəmizdə könüllülük hərəkatına xüsusi önəm verdi. Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə daha geniş yayılaraq cəmiyyətimizin bütün təbəqələrini əhatə etdi, gənclərimizin həyat tərzinə çevrildi.

Könüllülük hərəkatı təhsil sisteminə də müsbət təsir göstərir. Tələbələrin bu hərəkata cəlb olunması onlarda aktiv həyat mövqeyini, vərdiş və bacarıqları inkişaf etdirir, bilikləri artırır, vətənpərvərlik ruhunu gücləndirir.

2015-ci il dekabrın 14-də Azərbaycan Tələbə Könüllülərinin I Forumunda Təhsil Nazirliyi tərəfindən “BİR” Tələbə-Könüllü Proqramı təqdim edilmişdir. Bu hərəkatla tələbə-gənclərin həyat və fəaliyyətində yeni bir mərhələ başlanmışdır.

Proqram 20 mindən çox tələbəni əhatə edir. Proqram tərəfindən indiyədək yüzlərlə yerli və beynəlxalq tədbirə təşkilati dəstək verilib.

Gənclərimizin ən böyük sınağı Vətən müharibəsi idi. Vətən müharibəsi dövründə Azərbaycan könüllüləri də fəal iştirak etmiş, cəbhə ilə yanaşı informasiya müharibəsində düşmənə layiqli cavab vermişlər. Bu dövr ərzində düşmən mediasının yaydığı dezinformasiyaların qarşısı alınmışdır.

Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən edilən hücumlar nəticəsində zərər çəkmiş vətəndaşlarımıza mənəvi və maddi dəstək olmaq məqsədilə Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşəbbüsü ilə “Birlikdə dəstək” adlı humanitar aksiya keçirilmişdir.

Bir tarixi məqamı xatırlatmağı zəruri hesab edirəm. Qarabağın azadlığı uğrunda Vətən müharibəsinin regionda və Azərbaycan cəmiyyətində yeni reallıqlar yaratdığını bütün dünya etiraf edir.

Bu bir həqiqətdir ki, Vətən müharibəsində döyüşən Azərbaycan əsgərləri ya əvvəlki illərdə doğulub müstəqillik illərində, ya da bu illərdə doğulub təhsil alan Vətən övladlarıdır. Müqəddəs savaş göstərdi ki, istər hərbçilərimizdə, istərsə də cəmiyyətimizdə vətənpərvərlik ruhu kifayət qədər yüksəkdir. Bu, Azərbaycan cəmiyyətində dövlətin uğurla apardığı siyasətin nəticəsidir. Ancaq o da etiraf edilməlidir ki, təhsil sisteminin bu işdə rolu danılmazdır.

Müasir mərhələdə ölkə Prezidenti cənab İlham Əliyev gənclər qarşısında mühüm vəzifələr qoyaraq xüsusi vurğulamışdır ki, gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə olunmalı, yaxşı oxumalı, bilikli, savadlı olmalı, ölkənin tarixini yaxşı bilməli, anti-Azərbaycan dairələrinin təsiri altına düşməməlidirlər.

Hesab edirik ki, bu istiqamətdə, xüsusən ailədə və təhsil sistemində aşağıdakı prioritet məsələlərə diqqət artırılmalı, vətənpərvərlik tərbiyəsi sahəsində qazanılmış tarixi təcrübə daha da inkişaf etdirilməli, tərbiyə işi qloballaşan dünyanın müasir çağırışlarına cavab verməli, ölkənin iqtisadi, siyasi, sosial inkişafı ilə ayaqlaşmalıdır:

- Təhsil sistemində tərbiyə işinin səmərəli təşkili, bu sahənin dinamik və davamlı inkişafı üçün mövcud reallıqlar və dünya təcrübəsi nəzərə alınmaqla, tərbiyənin milli konsepsiyası və inkişaf strategiyası hazırlanmalı və icrasına başlanılmalıdır. Vətənpərvərlik tərbiyəsi təhsildə əsas prioritet istiqamət kimi müəyyənləşdirilməlidir.
- Vətən müharibəsinin nəticələri nəzərə alınmaqla, təhsilin məzmununda müvafiq korrektə və düzəlişlər aparılmalı, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması və işğaldan azad olunan ərazilər haqqında yeni reallıqlar ümumi təhsilin məzmununa daxil edilməlidir. Təhsil Nazirliyi bu haqda öz mövqeyini cəmiyyətə açıqlamış, dərsliklərdə müvafiq dəyişikliklər aparılmasına başlanmışdır.
- Vətən müharibəsində Azərbaycanın qələbəsini təmin edən amillər təhlil olunmalı, bütün təhsil müəssisələrində “Qarabağ dərsləri”, “Qarabağ şahinləri”, “Milli qəhrəmanlar”, “Qarabağ müharibəsi qəhrəmanları”, “Şuşa əməliyyatı” adlı ustad dərsləri təşkil olunmalı, müharibə şəhidləri və qaziləri təhsilalanlara dərindən tanıdılmalıdır.
- Tərbiyə işinin sistemli təşkili, azərbaycançılıq ideologiyasının təbliği, Azərbaycan dilinə, ədəbiyyatına, tarixinə, mədəniyyətinə məhəbbət hissinin, milli-mənəvi dəyərlərə hörmət duyğularının aşılanması, Vətənə sədaqət - vətənçilik, vətəndaşlıq mövqeyinin formalaşdırılması, vətənpərvərlik tərbiyəsi bütün təhsil sisteminin, xüsusən ümumi təhsil və məktəbdənkənar təhsil müəssisələrinin qarşısında duran prioritet vəzifələrdən biri olmalıdır.
- Vətən müharibəsində qazanılan uğurlara dair elmi, elmi-kütləvi, bədii, publisistik əsərlər yaranacaqdır. Hesab edirik ki, “Qarabağ Azərbaycandır!” seriyasından bu tipli əsərlər çap olunmalı, dünyanın müxtəlif dillərinə tərcümə edilməli, tariximizin bu şərəfli səhifəsi uşaq və gənclərimizə çatdırılmalıdır. Bunlarla yanaşı, Qarabağ müharibəsi qəhrəmanları, qaziləri, şəhidləri, iştirakçıları haqqında ensiklopedik soraq kitabları hazırlanmalı, sənədli filmlər çəkilməli, həmin insanlar yetişməkdə olan uşaq və gənclərə yetərincə tanıdılmalıdır.

Hesab edirik ki, böyük faktiki, qətiliklə sənədli bir material üzərində qurulmuş, səmimi və həqiqətlə yazılmış, zəngin şəkildə təsvir edilmiş və gözəl çap olunmuş xüsusi bir kitab seriyası - dastanlar yaradılmalıdır.

Qarabağımızın rayon və kəndlərinin yeni məhəllələrindən, meydan və prospektlərindən kənarda gənclərimiz keçmiş müharibənin qanı ilə səpilən küçələri, dağılmış və yanğından qaralan divarları, torpaqlarımızdan babalarının, atalarının və analarının əlləri ilə qəddar düşmənin süpürülüb atılmalarını görsünlər.

İkinci Qarabağ müharibəsinin qəhrəmanlıq hadisələrinin şahidləri və iştirakçıları hələ sağ ikən bunu etməyə dəyər.

Şübhə yoxdur ki, Azərbaycan cəmiyyəti və təhsil sistemi vətənpərvərlik tərbiyəsi sahəsində qazanılmış nailiyyətləri Vətən müharibəsinin yaratdığı yeni reallıqlara uyğun daha da inkişaf etdirəcəkdir. Ulu Öndər Heydər Əliyevin böyük uzaqgörənliklə söylədiyi kimi, ilkin olaraq ailədən başlayan bu tərbiyəvi iş təhsil müəssisələrində davam etdiriləcək, bütün cəmiyyətin hər bir üzvünün əməlindəki müsbət nümunələrlə yetkinləşdiriləcək.

***Firudin QURBANOV,***
***təhsil nazirinin müavini***

## ICESCO-nun nümayəndə heyəti işğaldan azad edilmiş Füzuli rayonunda və Ağdam şəhərində olub





İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malikin başçılıq etdiyi nümayəndə heyəti yanvarın 12-də Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfəri çərçivəsində Füzuli rayonunda olub.

Səfərin məqsədi Ermənistan silahlı qüvvələri tərəfindən işğal zamanı Azərbaycanın tarixi-mədəni və dini irsinin məhv edilməsinin nəticələri ilə tanış olmaqdır.

AZƏRTAC xəbər verir ki, ICESCO-nun nümayəndə heyəti əvvəlcə Füzuli şəhərinin xarabalıqlarına baxıb, şəhər qəbiristanlığında erməni vandalizminin izlərini görüblər. Ermənilər burada mərmərdən olan məzar daşlarını söküb aparıb, bəzi qəbirləri qarət məqsədilə dağıdıblar.

Şəhərdəki dağıdılmış Cümə məscidinin qalıqlarına baxış zamanı aydın olub ki, ermənilər digər məscidlərimizdə olduğu kimi, burada da mal-qara və donuz saxlayıblar. Nümayəndə heyətinin üzvləri İslam dini abidələrinin bu cür təhqir olunmasının, dağıdılmasının insanlıqla bir araya sığmadığını bildiriblər.

ICESCO-nun nümayəndə heyəti rayonun Qarğabazar kəndində qədim karvansaraya və XVII əsrə aid məscidin qalıqlarına, həmçinin Qoçəhmədli kəndinin yerlə-yeksan edilmiş məscid binasının xarabalıqlarına da baxıb, ermənilərin törətdikləri vəhşiliklərin bilavasitə şahidi olublar.

Salim bin Məhəmməd əl-Malikin başçılıq etdiyi nümayəndə heyətini Azərbaycanın mədəniyyət naziri Anar Kərimov, Azərbaycanın ICESCO yanında daimi nümayəndəsi Oqtay Qurbanov, ölkəmizin ICESCO üzrə milli komissiyasının baş katibi, Mədəniyyət Nazirliyinin administrasiya rəhbəri Vasif Eyvazzadə və Xarici ölkələr üzrə əməkdaşlıq şöbəsinin müdiri İsa Məmmədov müşayiət ediblər.

* * *





İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malikin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfəri çərçivəsində Füzuli rayonundan sonra Ağdama gedib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvləri Ağdam şəhərində Ermənistanın müharibə cinayətlərinin izlərinə baxıb, ermənilərin 27 il ərzində törətdikləri vandalizmin şahidi olublar.

Əvvəlcə Ağdam məscidinə gələn qonaqlara məlumat verilib ki, digər tarixi abidələrimiz kimi, XIX əsrin yadigarı olan Ağdam məscidi də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra talan edilib və dağıdılıb.

Daha sonra Ağdam Dram Teatrının və Çörək muzeyinin binalarının qalıqlarına baxan nümayəndə heyəti, rayonun işğaldan əvvəlki görüntüləri və tarixi abidələrinin fotoları olan stendlərlə də tanış olublar.

ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik və Azərbaycanın mədəniyyət naziri Anar Kərimov jurnalistlərin suallarını cavablandırıblar.

Felyeton

# SOVET “DEMAQOQU”, RADİKAL MÜXALİFƏT, 5-Cİ KOLON

*Əvvəli 1-ci səh.*

Anadan olanı araqla qarşılayıb, öləni o dünyaya araqla yola salanlara “içmə” demək olardımı?

“İçmə” deyəndə o, həqiqətən içməyəcəkdi, tərgidəcəkdi?

Üzümlükləri salxım qarışıq traktorun qabağına verdilər, şərab yerinə şirə istehsalına başladılar.

Nəticədə məvacib alan “fəhlə sinfi” araq-çaxır tapmadığından pulunu xərcləyə bilmədi, əmtəə-pul dövriyyəsi pozuldu, istehsalatda hərc-mərclik yarandı, inflyasiya baş alıb getdi, kommunizm də, sovet hökuməti də gözdən düşdü.

❖ ❖ ❖

Yenidənqurma və aşkarlığa qədər də “çatışmazlıqları” göstərənlər, nöqsanları, vəzifə adamlarını tənqid edənlər vardı.

Amma bütün bunlar partiya iclaslarında, məhdud dairədə və qapalı şəraitdə baş verirdi.

Deyilənlər də elə orada qalırdı!

Ölkə vətəndaşları tərəfindən “yuxarılara” göndərilən məktublarda isə (Adətən onlar “ərizə” adlandırılırdı) cinayət xarakterli faktlardan söhbət açılırdı.

Ən çoxu idarə və təşkilat müdirlərindən, ticarətçilərdən, kolxoz sədri və sovxoz direktorlarından, hətta rayonların birinci katiblərindən, icraiyyə komitəsi sədrlərindən yazılan bu ərizələr aşağıdan yuxarıyadək bütün instansiyalara göndərilirdi: Rayonların milis şöbəsi və prokurorluqlarına, xalq nəzarəti komitələrinə, bunların respublika və ittifaq orqanlarına, respublikalarda partiyanın mərkəzi komitələrinə, Sov.İKP.MK-ya, SSRİ Nazirlər Sovetinə, partiyanın baş katibinə, hətta Mavzoleyə yoldaş Leninə!

Aləm qarışırdı bir-birinə, yoxlama dalınca yoxlama gəlirdi.

Əsəb, qanqaralıq, bir-birindən şübhələnmələr...

Bu işləri törədənlər əsasən xalq arasında “demaqoq” adlandırılan adamlar olurdu.

Çoxu imzasız yazırdı, yaxud başqa, yalançı imza qoyurdu.

Hətta izi azdırmaq üçün qələmi sol əli ilə tutan, xətti tanınmasın deyə digərlərinə diktə edənlər, başqalarına yazdıranlar da (cəzalandırılmaq qorxusundan) olurdu. Amma “üslub”dan dərhal bilinərdilər.

Savadlı olanları, rusca bilənləri vardı, hansı təşkilata faktı necə çatdırmağın, rayona və ya idarəyə “yoxlama komissiyası” gətirməyin xüsusi üstaları vardı.

Sovet dövrünün axırlarında bu “sənət” o qədər inkişaf etmişdi ki, hər rayonda yerli “demaqoqlardan ibarət” “tanınmış nümayəndələr” yaranmışdı.

İstədikləri nə idi?

Əvvəlcə bu işlə “adətkərdələr” məşğul olurdu.

Sonra onun faydasını görüb sıralarına qoşulanların sayı artdı.

“Özü üçün işləyənlər” hansısa iddiası təmin olunmayanda, məsələn, növbədənkənar minik maşını (sovet dövründə öz puluna avtomobil almaq üçün illərlə növbədə gözləmək lazım gələrdi), mənzil almaq, yaxud hansısa rəhbər işçinin qəbuluna düşə bilməmək, ya kiminsə canını boğazına yığıb cib xərcliyi qopaqmaq naminə qələmə qurşanırdılar.

Sonralar bu məşğuliyyət gəlirli, hətta “hörmətli” sayılmağa başladı. Təkcə pul alıb susmaq yox, kimdənsə pul alıb (bizdə bu sayaq sifariş verənlər indi də çoxdur) başqası işdən çıxarılanadək yazmaq sifarişi götürənləri də (belədə dəstə halında fəaliyyət göstərilərdi) olurdu.

Bəzi vəzifə sahibləri canlarının dərdindən belələri ilə “dostluq” edir, daim ciblərinə pul qoyurdular ki, onlarla işləri olmasın. Hətta böyük vəzifə sahibləri başqa rayonda işə keçəndə kabineti ilə bərabər “yerli demaqoqları” da təzə vəzifə yiyəsinə təhvil verirdi.

Tanışlıq yarananadək başağrısı olmasın deyə!

Maraqlı burasındadır ki, “peşəkar yazanlar”ın bir qismi müstəqillik dövrünədək gəlib çıxdı və xeyli “fəaliyyət” göstərdi.

❖ ❖ ❖

Əvvəlcə aşkarlıq, sonra mitinqlər dövründə (doxsanıncı illərin əvvəlləri nəzərdə tutulur) “demaqoq”lara ehtiyac qalmadı.

Hamı hər şeyi mitinqlərdə tribunalardan açıq söyləyir, təzə peyda olan çoxsaylı qəzetlərdə yazırdı.

Qəribədir, elə insanlar var ki, onlar özlərindən başqa hamıda nöqsan görürlər!

Başqalarını çox ləzzətlə tənqid edirlər!

Hətta bəzən ifrata varırlar, faktların dəqiqliyini bilmədən, hadisənin mahiyyətinə getmədən ittihamçıya çevrilirlər.

Adamlara şər-böhtan atır, təhqiramiz ifadələr işlədirlər.

Azad söz meydanı sayılan sosial şəbəkənin “azğın söz” yerinə çevrilməsi, söyüş və təhqirin baş alıb getməsi halları da az deyil!

Bütün bunlar xoşagəlməzdir, xalqımızın milli - mənəvi dəyərlərinə, mentalitetinə uyğun olmayan məqamlardır.

❖ ❖ ❖

Azərbaycan müstəqil, demokratik dövlətdir.

Bizdə mətbuat və söz azadlığı, çoxpartiyalı sistem mövcuddur.

Müxalifət də demokratik dövlətin atributlarından biridir.

Müxalifətin tənqid etməsi təbiidir, normaldır!

İslahatlar yolu tutan Azərbaycan iqtidarı müxalifətlə dialoqa gedir, məsləhətləşmələr aparır.

Milli Məclisdə çoxsaylı müxalifət partiyaları təmsil olunur, onlara idarəetmədə xeyli vəzifə etibar olunub.

Radikallıq, inkarçılıq isə tamam başqa şeydir!

- Olanları, yaxud edilənləri görməmək, yaxud görməzliyə qoymaq;
- Hər şeydə bir “əmma”, pislik axtarmaq;
- Ən əsası xalqın, dövlətin maraqlarını unutmaq və ya şüurlu şəkildə tapdalamaq;
- Həlledici, həssas məqamlarda arxadan bıçaq saplamağa çalışmaq - bütün bunlar müxalifətçilik yox, əslində düşmənçilik sayılır!

“Sovet demaqoqları” vəzifə sahiblərinə qarşı aqressiv olsalar da, dövlətlə işləri yox idi!

Ulu Öndər Heydər Əliyevin təbirincə desək, iqtidara qarşı müxalifətdə durmaq olar, dövlətə, xalqın maraqlarına qarşı yox!

İnkişaf etmiş “sovet demaqoqları”nın tənqidini, iqtidara qarşı mübarizəni başa düşmək mümkündür!

Təhqirini, dövlət uğursuzluqla üzləşəndə sevinməsini, millətə qarşı müxalifətçiliyini isə anlamaq çətindir!

Axı sən də bu dövlətin vətəndaşısan!

Axı sən də bu xalqın övladısan!

Əslində bu dövlətə, bu xalqa pislik olanda sən də özünü pis hiss etməlisən!

“Xalqa, dövlətə nə qədər pis olsa, bizə o qədər yaxşıdır” mövqeyi, fəlsəfəsi başa düşülən və qəbul olunan hərəkət deyil!

❖ ❖ ❖

“5-ci kolon”a çevrilmək isə nəinki “sovet demaqoqları”ndan uzaqlaşmaq, hətta radikal müxalifətçilikdən də o yana keçmək deməkdir!

Bəli, dünyadakı proseslərə təsir göstərmək istəyən, bəzən buna nail olan dövlətlər var!

Onlar hər yerdə, hətta hər dövlətin daxilində belə öz maraqlarını təmin etməyə çalışırlar və hərdən buna nail olurlar da!

Ən müxtəlif üsul və vasitələrdən, təzyiq metodlarından istifadə etməklə!

Əslində rəngli inqilablar, “ərəb baharları”, demokratiya istəyi ilə ölkədaxili sabitliyin pozulması həmin niyyətlərin gerçəkləşməsidir.

Belə dağıdıcı, “təhrikçi” əməllərə rəvac verməməkdən öncə hədəf ölkələrdə insanlar müxtəlif üsullarla (sovet dövründəkinə oxşar və fərqli) ələ alınır, onlardan “5-ci kolon” düzəldilir.

Bu “kolon”un üzvləri ölkə daxilində və xaricdə də yaşaya bilirlər.

Əsas əməlləridir: daim mənsub olduqları dövlətin əleyhinə çıxmaq, ona qarşı mövqe tutmaq, müxtəlif üsullarla gözdən salmağa çalışmaq, xəyanət etməkdən belə çəkinməmək!

Bu nə vətənə vətəndaşlıqdır, nə də xalqa övladlıq!

Əsl adı satqınlıqdır!

Ən yaxşı halda qazancları hansısa qürbət ölkədə mühacirətdə yaşamaqdır!

Get yaşa də, sənə kim nə deyir!

Amma gərək çörəyini vətənə xəyanətdən çıxarasan?

Gərək dövlətini satmaqla qrant alasan?

Özün rahat yaşamaq naminə xalqına niyə narahatlıq, zillət və əziyyət verdirmək istəyirsən?

Azərbaycanda hamı çörəyi ağzına yeyir, kimin kim olduğunu, hansı əmələ qulluq etdiyini hətta ən sadə, savadsız vətəndaşımız belə gözəl anlayır.

Və belə “azərbaycanlıya” haqlı olaraq nifrət bəsləyir!

Düzünü demək və yazmaq sivil hərəkət , demokratik qaydada mübarizə aparmaq isə yaxşıdır!

Radikallıq göstərmək, “5-ci kolon”a çevrilmək isə kimsəyə şərəf gətirən əməl deyil!

Hansı millətdən, xalqdan olursa-olsun!

Heç belələrinin aqibəti də yaxşı olmur!

**Bəxtiyar SADIQOV**

# “Azərenerji” Suqovuşandakı kiçik su elektrik stansiyalarının təmirinə başlayıb



“Azərenerji” ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə,”Azərenerji” işğaldan azad edilən Suqovuşanda yerləşən ümumi gücü 7,8 meqavat olan “Suqovuşan-1” və “Suqovuşan-2” Kiçik Su Elektrik stansiyalarında əsaslı təmir və bərpa işlərinə başlayıb.

Qeyd edək ki, erməni qəsbkarları Suqovuşandakı 4,8 və 3 meqavat gücündə olan kiçik su elektrik stansiyalarının yararlı ehtiyat hissələrini söküb daşıyıb, apara bilmədiklərini isə dağıdıblar. Eyni zamanda döyüşlər zamanı stansiyalara ciddi ziyan dəyib. Ona görə də hazırda “Suqovuşan-1” və “Suqovuşan-2” Kiçik Su Elektrik stansiyalarının maşın zalları, aqreqatları, generatorları, o cümlədən idarəetmə mərkəzinin binası, panellər, avadanlıqlar, yarımstansiyasının gərginlik və cərəyan transformatorları təmir edilir və ya yenisi ilə əvəzlənir.

Aparılan işlərin yaxın aylarda başa çatdırılması planlaşdırılıb. İşlər bitəndən sonra ilkin olaraq Suqovuşan qəsəbəsi, Talış kəndi də daxil olmaqla yaxın ərazilərə elektrik enerjisi veriləcək, daha sonra isə enerji paylayıcı elektrik şəbəkəsinin yeni çəkilən elektrik xətləri vasitəsilə digər istiqamətlərə də ötürüləcək.

# Ermənilər xofdadır: «Moskva görüşünün qalibi İlham Əliyev oldu»

*Əvvəli 1-ci səh.*

## “Azərbaycan Ermənistana növbəti zərbəni Moskvada vurdu”

Hazırda Ermənistanın Rusiya və Qərblə münasibətləri normal deyil. Əvvəllər Ermənistan Rusiyanın himayəsi altında mövcudluğunu davam etdirirdisə, indi Nikol Paşinyan iqtidarının həyata keçirdiyi siyasət iki ölkə arasında münasibətlərə xeyli zərbə vurub.

Ermənistanın “4rd.am” saytı yazır ki, yaranmış bu vəziyyətdə Rusiya Yerevana əvvəlki diqqət və qayğını göstərmir: “Moskva görüşünün qalibi İlham Əliyev oldu. Prinsipcə çoxdan aydın idi ki, Rusiya Ermənistanın müttəfiqi və dostu sayıla bilməz. Regionun geopolitik situasiyası sürətlə dəyişir. Dünənə qədər inanılmaz görünən məsələlər bu gün gözümüzün önündəcə çökür. Dünənki dostlar və müttəfiqlər birdən-birə yadlaşırlar. Belə bir inanılmaz və çılğın vəziyyətdə sabah nə olacağı bəlli deyil. Aydın olan odur ki, Moskva müharibədə məğlub olan erməni tərəfinin maraqları ilə hesablaşmadığını göstərmək qərarına gəlib”.

Ermənistanın “İravnuk” qəzeti isə yazır ki, İlham Əliyevin Rusiyaya səfəri hər zaman olduğu kimi Yerevanı daha sürətlə Moskva üçün arxa plana itələyir: “Bunun səbəbləri çox sadədir. Rəsmi Yerevan əslində Rusiyaya qarşı hansısa addım atmadığını, Qərblə gizli sövdələşmələrə getmədiyini bəyan etsə də, real vəziyyət bunun tamam əksini göstərir. Məhz bu səbəbdən Moskva Yerevana qarşı qəzəblidir. Moskva qəzəbini əslində müxtəlif formada ifadə etməyə başlayıb. Ermənistanda müharibədəki məğlubiyyət və pandemiya fonunda iqtisadi vəziyyətin daha da ağırlaşması bunun bir təzahürüdür. Amma bu, hələ başlanğıcdır. Rusiya satdığı enerjidaşıyıcılarının qiymətini qaldırsa, onda vəziyyət çox pis olacaq. Amma görünür, Nikol Paşinyan iqtidarı bütün bu reallıqları hesablamaqda çətinlik çəkir. Ona görə də bizi müsbət nəsə gözləmir. Azərbaycan vəziyyətdən maksimal dərəcədə istifadə etməyə çalışır. Azərbaycan bu gün müharibədəki qələbənin verdiyi əlavə üstünlüklərlə kifayət qədər uğurlu gedişlər etməyi bacarır və Ermənistan bunun ağrısını daha çox hiss edəcək. Görünən odur ki, Azərbaycan Ermənistana növbəti zərbəni Moskvada vurdu”.

## Ümidlər puç oldu

Nikol Paşinyan istəyirdi ki, görüşdə Dağlıq Qarabağın statusuna aydınlıq gətirilsin. Lakin bu məsələ, ümumiyyətlə, müzakirəyə çıxarılmadı. “Joxovurd” qəzeti yazır ki, bu, Rusiyanın Dağlıq Qarabağı Azərbaycanın ərazisi kimi qəbul etməsinin göstəricisidir. Qeyd olunur ki, baş nazir 10 noyabr anlaşmasını pozmaq istəyirdi. Bunun üçün münaqişəni yenidən ATƏT Minsk qrupunun nəzarətinə qaytarmaq və 5 ay bundan qabaqkı status-kvonu bərpa etməyə çalışdı: “Bu təklif nəinki müzakirə olunmadı, əksinə, bu təkifin səslənməsi Rusiya və Azərbaycan liderlərinin açıq qəzəbinə səbəb oldu. Nikol Paşinyanın əsir və girovlar məsələsinin yenidən müzakirəyə çıxarılması istəyi də gerçəkləşmədi. Rusiya lideri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi adlı bir söz birləşməsinin bundan sonra yoxluğunu da diqqətə çatdırdı. Bu isə Ermənistanın arzularının puç olması deməkdir”.

## “Əliyev Paşinyanı istədiyi və bacardığı kimi alçaldır”

“Vesti.FM” radiosunun aparıcısı, yazıçı Armen Qasparyan deyib ki, danışıqlarda Ermənistanın baş naziri Nikol Paşinyanın işi ilk növbədə Vladimir Putinin təşəbbüslərini izləmək olub. O, Putinin dediklərini dinləməlidir və bunu tərəddüdsüz icra etməlidir. Fakt budur ki, Paşinyanın özündə indi baş verənləri anlaması üçün böyük problemlər var. O, əlavə edib ki, Qarabağ müharibəsini təhlil etmək cəhdi ilə yazdığı son məqaləsi göstərdi ki, Paşinyan bizim reallığımızda yaşamır. Buna görə də Ermənistanın baş naziri üçün ən yaxşı taktika Moskvanın təklif etdiyi şeyi etmək olardı. O zaman Ermənistanda vəziyyət nisbətən yaxşı olacaq. Əks təqdirdə, Ermənistandakı fəlakət davam edəcək.

“Hüquq Təhsili və Nəzarəti” ictimai təşkilatının rəhbəri, Ermənistanın keçmiş ədliyyə naziri Arpine Ovannisyan “Facebook” səhifəsində Kremldə aparılan üçtərəfli danışıqlara toxunub. Bildirib ki, doğrudanmı kimsə Nikol Paşinyanın əsirlər məsələsini həll edə biləcəyini düşünürdü: “Ciddisinizmi? İki həftə əvvəl, qardaşımın əsir tutulduğu iddia edilən bir şəraitdə (çoxsaylı dəlillər də var) dedim ki, Ermənistanı bu təmsil edəcəksə, məsələ həll edilə bilməz. Bunu etmək istəmədiyi üçün deyil, edə bilmədiyi üçün həll edə bilməz. O bunu edə bilməz, çünki o, türk qarşısında alçaldılır. Ermənistanın heç bir liderini belə alçaltmayıblar. Belə sərhədsiz və amansız. İstəsə də, istəməsəniz də, onu sevsəniz də, sevməsəniz də, o, Ermənistanın mənafeyindən irəli gələn hər hansı bir məsələ kimi bu məsələni də həll edə bilmir. Əliyev onu istədiyi və bacardığı kimi alçaldır. Əlindən gələni edir. Sadə bir insan həqiqətini deyirəm. Çətin və acı olsa da, qəbul etməyi öyrənin”.

## Baş nazir müharibəni vaxtında dayandırmamaqda günahlandırılır

Bu arada İkinci Qarabağ müharibəsində Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktoru vəzifəsini icra edən Mikael Ambarsumyan N.Paşinyanı müharibəni vaxtında dayandırmamaqda günahlandırıb. Ambarsumyan erməni KİV-ə müsahibəsində deyib ki, güc strukturlarının , xüsusən Milli Təhlükəsizlik Xidmətinin və baş qərargahın rəhbərləri oktyabrın əvvəllərindən başlayaraq gündəlik cəbhədəki vəziyyət barədə baş nazirə məruzə edirdilər və müharibənin tezliklə dayandırılmasının zəruriliyini bildirirdilər.

M.Ambarsumyan oktyabrın 8-dən noyabrın 7-nə qədər həmin vəzifəni icra edib, daha əvvəl isə Milli Təhlükəsizlik Xidmətinin direktor müavini olub. Oktyabrın 19-da Təhlükəsizlik Şurasının Ambarsumyanın da iştirakı ilə keçirilən iclasında baş qərargah rəisi Onik Qasparyan məruzə edib ki, müharibəni təcili dayandırmaq lazımdır. Bildirib ki, biz məğlubiyyətə gedirik. Müdafiə naziri Tonoyan da həmin mövqeni dəstəkləyib. Müxalifət nümayəndələri Arman Abovyan və Edmon Marukyan da müzakirələrdə iştirak edib. Bununla belə müharibənin dayandırılması barədə qərar qəbul olunmadı. Sonradan Rusiya Prezidentinin və digər mənbələrin bəyanatlarından aydın oldu ki, oktyabrın 19-da analoji təklifi Rusiya tərəfi də irəli sürüb. Nə etmək lazım olduğu barədə konkret bəndlər təklif olunub. Mahiyyətcə Lavrov planını həyata keçirmək təklif edilirdi.

Ermənistan prezidenti Armen Sarkisyan isə yazdığı məqaləsində deyir ki, ölkədə dərin siyasi, iqtisadi, sosial və psixoloji böhran mövcuddur. O bildirib ki, bu vəziyyətdən yeganə sivil çıxış yolu növbədənkənar seçkilərin keçirilməsidir: “Bu gün biz və ilk növbədə, hökumət qəbul etməlidir ki, ölkədə dərin siyasi, iqtisadi, sosial və psixoloji böhran mövcuddur. Bu vəziyyətdən yeganə məntiqli və sivil çıxış yolu növbədənkənar seçkilərin keçirilməsi, Seçki Məcəlləsinə və Konstitusiyaya dəyişikliklərdir”.

Bütün bunlar Prezident İlham Əliyevin növbəti qələbəsi, Paşinyanın xarici siyasətinin fiaskosu da sayıla bilər. Paşinyan ümid edirdi ki, Moskva görüşündə Ermənistanın maraqları təmin ediləcək, Rusiya ilə münasibətlərlə bağlı bir çox məsələlər həll ediləcək. Lakin Paşinyanın xarici siyasəti, əslində, iflasa uğramış bir vəziyyətdədir və bu hal Ermənistanın dövlətçiliyinə növbəti zərbədir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Rusiya Azərbaycanın Fövqəladə Hallar Nazirliyinə 15 mobil konteyner göndərib



Formalaşmış ikitərəfli sıx əməkdaşlıq münasibətləri çərçivəsində Rusiya Federasiyasının Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə (FHN) səhra şəraitində istifadə üçün nəzərdə tutulan 15 ədəd mobil konteyner göndərilib.

Bu barədə AZƏRTAC-a Fövqəladə Hallar Nazirliyinin Mətbuat xidmətindən bildiriblər.

Qeyd edilib ki, Azərbaycan FHN-in Qarabağ Regional Mərkəzinə çatdırılmış konteynerlərdən 10 ədədi yaşayış, 5 ədədi isə ofis kimi istifadə üçün nəzərdə tutulub. Konteynerlərdə yaşayış və iş fəaliyyəti üçün müvafiq şərait yaradılıb.





## Azərbaycanın sevinci Türkiyənin, türk xalqının da sevincidir

*“Böyük Zəfər münasibətilə Azərbaycan xalqını, azərbaycanlı qardaşlarımızı ürəkdən təbrik edirəm. Azərbaycanın sevinci Türkiyənin, türk xalqının da sevincidir. Bu sevinci daha da artıran məsələlərdən biri də Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan olunmasıdır”.*

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) Baş katibinin sabiq müavini, professor Fırat Purtaş ifadə edib.

Şuşadakı tarixi abidələrin bərpa edilərək yeni görkəm alacağına inandığını bildirən professor əminliklə deyib ki, Şuşa yeni görünüşü ilə türk dünyasının mədəniyyət paytaxtı seçiləcəkdir.


## Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Məlumat Hesablama Mərkəzi

### *açıq tender elan edir*

LOT 1 - **İnformasiya sistemlərinin kibertəhdidlərdən qorunması məqsədilə təhlükəsizlik avadanlıqlarının satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tenderdə mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilər.

İştirak haqqı: LOT 1 - 400 AZN

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**H/h: AZ31AZPO91015461200420100045**
**VÖEN: 9900037691**
**Bank: “Azərpoçt” MMC PF 1**
**Kodu: 691011**
**VÖEN: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxs(lər)i:
Asəf Məmmədov
Təsərrüfat və təchizat şöbəsinin müdiri
m.asef@rabita.az
012565-14-65

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü, tender təklifinin qüvvədə olma müddətindən isə ən azı 30 bank günü çox qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 03.02.2021-ci il saat 12:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 11.02.2021-ci il saat 17:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 12.02.2021-ci il saat 12:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***



## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Azərpoçt” MMC tabeli poçt müəssisələrinin “Kondisionerlərin təmiri” işlərinin satın alınması məqsədilə kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştrak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) və digər zəruri sənədlər 2 nüsxədə (əsli və surəti) qapalı zərfdə, imzalanmış və möhürlənmiş şəkildə 18 yanvar 2021-ci il saat 18:00-dək Bakı şəhəri, Səbail rayonu, Üzeyir Hacıbəyli, 72 ünvanında yerləşən inzibati binaya təqdim olunmalıdır.

Zərflər 19 yanvar 2021-ci il saat 10:00-da həmin ünvanda açılacaqdır.

Telefon: 012-493-56-00; mail ünvanı: office@azerpost.az.

***Tender komissiyası***

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti
## *açıq tender elan edir*

**- Miniven tipli minik avtomobillərinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**400 (dörd yüz) manat (ƏDV daxil)**

iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına "ASAN Ödəniş" portalı vasitəsilə ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin Əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin Əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **04 fevral 2021-ci il saat 16:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlardan arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*
11. *İddiaçının hansı sahibkarlıq subyektinə aid olması ilə bağlı Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən və ya vergi orqanı tərəfindən arayışın təqdim edilməsi mütləqdir.*

İddiaçılar tender təklifini və bank təminatını **14 fevral 2021-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **15 fevral 2021-ci il saat 16:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada etender@gov.az dövlət satınalmalarının vahid internet Portalında aparılır.**

***Tender komissiyası***

# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

***qəzetinə 2021-ci il üçün***
***abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | (012) 440-46-94, (012) 441-19-91 |
| *"Azərpoçt" ASC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Kaspi" MMC* | (012) 432-39-55, (012) 510-82-24 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası 2021-ci il üçün TC2-19 3D body Scanner cihazının proqram təminatına lisenziyanın satın alınması məqsədi ilə kotirovka sorğusu elan edir

Maraqlananlar +99412 564-09-00 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 12.01.2021-ci il saat 15:00-dan 14.01.2021-ci il saat 11:00-dək qəbul olunur.

Ünvan: Bakı şəhəri, Fətəli Xan Xoyski prospekti, 98
Telefon: +99412 564-09-00
E-mail: info@sport.edu.az

***Tender komissiyası***

## Daxili İşlər Nazirliyinin Tibb İdarəsi Dəftərxana və təsərrüfat ləvazimatlarının, tibbi mebellərin, tibbi mebellərin təmiri işlərinin satın alınması üzrə kotirovka sorğusu elan edir

Maraqlanan təşkilatlar 012 590-20-60 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək istəyənlər Bakı şəhəri, Azadlıq pr., 161 ünvanında yerləşən Daxili İşlər Nazirliyinin Tibb İdarəsinə müraciət edə bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 15.01.2021-ci il saat 13:00-dək qəbul olunur. Göstərilən vaxtdan sonra təqdim olunan sənədlər baxılmadan geri qaytarılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 22 dekabr 2020-ci il tarixdə www.etender.gov.az Portalında, 23 dekabr 2020-ci il tarixdə "Azərbaycan" qəzetində dərc edilmiş Quba rayonunda yeni açılacaq DOST və Regional Peşə Hazırlığı Mərkəzində İT infrastrukturunun (sistemlərin) qurulmasına lazım olan avadanlıqlar, proqram təminatları və onların quraşdırılması (sazlanması) üzrə işlərin satın alınmasına dair keçirilmiş təkliflər sorğusunda Tender komissiyasının qərarı ilə "Halal-P" MMC müsabiqənin qalibi elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Radio-Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyi tərəfindən "Regionlarda televiziya və radio yayımının keyfiyyətinin yüksəldilməsi və əhatə dairəsinin genişləndirilməsi üçün TV və FM radio yayım avadanlıqlarının, rəqəmli ehtiyat şəbəkə üçün rəqəmli TV yayım avadanlıqlarının alınıb quraşdırılması işlərinin satın alınması" üzrə 08.12.2020-ci il tarixdə elan olunan tender heç bir iddiaçı olmadığına görə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsi əsasında 12.01.2021-ci il tarixdə ləğv edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 19 noyabr 2020-ci il tarixli nömrəsində dərc edilmiş və Dövlət satınalmalarının vahid internet Portalında **(https://www.etender.gov.az)** Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmada (eTender) Noutbukların və veb kameranın satın alınması və İnformasiya texnologiyaları sistemlərinin üzərində çalışan virtual platforma üçün vendor texniki dəstək xidmətinin 1 (bir) il müddətinə uzadılmasının satın alınması üzrə **"Bakinity Distribution" MMC** qalib olmuşdur.

Qalib şirkətlə 08 yanvar 2021-ci il hər LOT üzrə ayrıca müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevə anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov Bakı Şəhər Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevə anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi Bakı Şəhər Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevə anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədova əzizi

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyası İcra Katibliyinin kollektivi iş yoldaşları Nüşabə Səfərovaya anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Bakı Şəhər Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevə anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Ağalar Vəliyevə anası

**QARAGÖZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevə anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıtdan Zakir Fərəcov Bakı Şəhər Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevə anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıtdan Zakir Fərəcov Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədova əzizi

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədova əzizi

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azneftemaş" ASC-nin prezidenti Şahmar Vəliyev Bakı Şəhər Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevə anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

YAP Nərimanov Rayon Təşkilatının İdarə Heyəti YAP Siyasi Şurasının üzvü, Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevə anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 19 noyabr 2020-ci il tarixli nömrəsində dərc edilmiş və Dövlət satınalmalarının vahid internet Portalında **(https://www.etender.gov.az)** Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmada (eTender) Uzaqdan qoşulma üçün lisenziyanın satın alınması üzrə "Mirai Technology" MMC qalib olmuşdur.

Qalib şirkətlə 08 yanvar 2021-ci ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 04 dekabr 2020-ci il tarixli nömrəsində və dövlət satınalmalarının vahid internet Portalında (https://www.etender.gov.az) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən Əməkdaşlar üçün könüllü tibbi sığorta xidmətlərinin satın alınması üzrə dərc edilmiş elan əsasında keçirilən təkliflər sorğusunda "Ata Sığorta" ASC qalib olmuşdur.

Qalib şirkətlə 06 yanvar 2021-ci ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5055
Sifariş 86
Qiyməti 40 qəpik